AZƏRBAYJAN MİLLİ ELMLƏR AKADEMİYASI MƏHƏMMƏD FÜZULİ
adına ƏLYAZMALAR İNSTİTUTU

MARAĞALI MƏHƏMMƏDHƏSƏN XAN ETİMADÜSSƏLTƏNƏ

# (GÖZƏLLƏRİN SƏRVƏTİ)

# XEYRATİ - HİSAN

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

BAKI - 2002

## ÖN SÖZ

Müdriklərdən biri demişdir ki, elm və tərbiyənin ibtidası qadınlardan başlayır, elm tələb etmək hər bir müsəlman kişiyə və qadına vajibdir. Bu hökm sayəsində yer üzündə milyonlarla elmli və tərbiyəli müsəlman qadını övladına müəllim və tərbiyəçi olmuşdur. Tarix boyu ijtimai və siyasi həyatda müəyyən mövqe tutmuş qadın bir çox şifahi və yazılı abidələrdə tərənnüm olunmuşdur. "Kitabi-Dədə Qorqud" yazılı abidəmizdə təsvir olunan mərd qadınların xələfləri olan Tuti Bikə, Rüstəmə, Qürrətüleyn, Həjər kimi türk qadını[1] Məhəmməd Zehni əfəndinin "Məşahirün-nisa"[2], Rzaəddin ibn Fəxrəddinin, "Məşhur xatunlar"[3], Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-hesan"[4], Bəhriyyə Uçokun "Müsəlman dövlətlərində qadın-hökmdarlar"[5] və başqa əsərlərdə yaşayırlar. Belə əsərlərdən biri, marağalı Məhəmmədhəsən xanın "Xeyrati-hesan"

---

[1] Çəmşidov Ş. Kitabi-Dədə Qorqud. B., Elm, 1977, 176 s.

[2] Məhəmməd Zehni əfəndin. Məşahirün-nisa. Jild I. İstanbul, Darültəbayi-Amirə, 1295 h.q. 1878, 27 s. Türk dilində

[3] Rzaəddin ibn Fəxrəddin. Məşhur xatunlar. Orenburq, 1904, 448 s. Tatar dilində; Bakı, Azərnəşr, 1993 (Çapa hazırlayan: Zəminə Hajıyeva).

[4] Etimadüssəltənə M. Xeyrati-hesan. J.1-3, Tehran, 1886-1888. Fars dilində.

[5] Baxrie Uçok. Jenhinı-pravitelğniüı v musulğmanskix qosudarstvax. Türk dilindən tərçümə edəni akademik Z.M.Bünyadovdur. M., "Nauka", 1982, 176 s.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

("Gözəllərin sərvəti") əsəri diqqətəlayiqdir. Əsərin müəllifi Nəsrəddin şah Qajar dövrünün görkəmli şəxsiyyəti olmuşdur.

## MƏHƏMMƏDHƏSƏN XAN ETİMAÜSSƏLTƏNƏNİN HƏYATI VƏ "XEYRATİ-HESAN" ƏSƏRİ

Marağalı Məhəmmədhəsən xan 1843-jü il 16 sentyabrda Tehranda anadan olmuşdur[6]. Ana tərəfdən Ağa Məhəmməd şah Qajarın qardaşı Mustafaqulu xanın nəvəsidir. Atası Əli xan Müqəddəmdir. O, məşhur islahatçı Baş Nazir Əmiri-Kəbir Mirzə Tağı xanın 1851-ji ildə Tehranda təsis etdiyi Darülfünuna daxil olmuş, burada hərbi xidmət elmini öyrənməklə yanaşı tarix, joğrafiya, riyaziyyat elmlərini, ərəb, ingilis və rus dillərini mənimsəmişdir. O, 9 yaşında ikən piyada qoşunlar komandanı Əziz xanın yanında qulluq etməyə başlamışdır. Sonra İranın Xuzistan, Luristan əyalətlərində polk komandiri, Şüştərin hakimi təyin olunmuş,1863-1867-çi illərdə Parisdə İranın səlahiyyətli səfiri Həsənəli xan Qorusinin müavini, attaşe kimi çalışmışdır. Bu müddətdə fransız dilinə mükəmməl yiyələnmiş, boş vaxtlarını ingilis dilini öyrənməyə sərf etmişdi. O, Fransadan Tehrana qayıtdıqdan sonra II dərəjəli Şiri-Xurşid ordeni ilə təltif olunaraq, Nəsrəddin şahın şəxsi mütərjimi və köməkçisi təyin edilmişdir.

1871-ji ildə Nəsrəddin şah Tehranda aparılan bir sıra islahatlarla əlaqədar bütün tərjümə işlərini və kitab nəşrini bir yerdə mərkəzləşdirmək barədə sərənjam vermişdir. Şah eyni vaxtda Məhəmmədhəsən xana Səniüddövlə titulu (dövlət sənətkarı) verərək, nəşriyyat və tərjümə idarəsinin rəisi təyin etmişdir.

[6] Mehdi Bamdad. Tarixi- riçali- İran. Çild 3. Tehran, 1966, s.330



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sonralar bu iki idarə Nəşriyyat Nazirliyi adlandırılmış və İranda bu Nazirliyin naziri vəzifəsi Etimadüssələtənə (dövlətin etimadlı adamı) titulunu almış Məhəmmədhəsən xana tapşırılmışdır. O, ömrünün axırınadək dövlət işləri ilə məşğul olmuşdur. Bununla yanaşı tarixi-joğrafi əsərləri ilə İran tarixşunaslığında Avropa elmi metodunun, yazıçı-tərjüməçi kimi bədii əsərləri ilə fars nəşrinin sadələşmiş nümunələrinin banisi kimi tanınır. Otuzdan artıq oricinal və tərjümə əsərlərin müəllifi Məhəmmədhəsən xan 53 yaşında düşmənləri tərəfindən zəhərlənərək öldürülmüşdür. Onun əsərləri Avropa mənbələrindən, dövlət sənədlərindən, Avropa və ölkədaxili səfərləri zamanı topladığı materiallardan qidalanmışdır. 4 jildlik "Mirat ül-büldani-Nasiri" (Nasiri şəhərlərinin aynası), üçjildlik "Mətləüş-Şəms" (Günəşin çıxması), "Dürər üt-tijan fi tarixi-bəni əl-əşkan" (Əşkanilər tarixində dürlər toplusu), "əl-Məasir vəl-asar" (Hünərlər və əsərlər) onun əsərlərindəndir. Bu əsərlərdə Azərbayjan tarixi və görkəmli şəxsiyyətləri haqqında dəyərli məlumatlar vardır.

Məhəmmədhəsən xan Etimadüssəltənənin üçjildlik "Xeyrati-hesan" əsəri Şərq qadınları haqqında məlumat verən bioqrafik lüğətdir.

## "Xeyrati-hesan" əsəri

Etimadüssəltənənin yazdığına görə, "Xeyrati-hesan" XIX əsrin məşhur türk ədibi Məhəmməd Zehni əfəndinin "Məşahirün-nisa" əsərinin türk dilindən tərjüməsidir. Etimadüssəltənə yaradıjılığı-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nın tədqiqatçılarının heç də hamısı bu əsərin tərcümə olduğunu göstərmirlər [7]. Əsər 1886-1888-ji illərdə Tehranda daşbasma üsulu ilə çap olunmuşdur. Məhəmmədhəsən xan, Lütfəli bəy Azərin "Atəşgədə", Mahmud Mirzə Qajarın"Noqle məjlis", İzədüddövlə Əhməd Mirzə Qajarın "Tarix" əsərlərindən buraya əlavələr edərək azərbayjanlı qadınlar haqqında da məlumat vermişdir. Ümumiyyətlə 4 jilddən ibarət olan "Xeyrati-hesan"da məşhur fars, türk, azərbayjanlı, ərəb, hind və həbəş qadınlarından bəhs olunur. Şəxsiyyətlər əlifba sırası ilə verilmişdir. (Aminə-Yəhəbulla).

Əlyazmalar İnstitutunda mühafizə olunan "Məşahirün-nisa" əsərinin I jildini "Xeyrati-hesan"la müqayisə etdikdə bəzi dəyişikliklərə rast gəlmək olar. Belə ki, Məhəmməd Zehni əfəndinin kitabında Məhəmməd (s) peyğəmbərin anası Aminə binti-Vəhəb əlifba sırasına uyğun olaraq 9-ju səhifədə verildiyi halda "Xeyrati-hesan"da 1-ji səifədə verilmişdir. "Məşahirün-nisa"nın bu jildi "əlif " – "za" hərflərini əhatə etdiyindən həmin əsərin 2 jilddən ibarət olduğunu zənn etmək olar. Məhəmmədhəsən xan yuxarıda göstərilən mənbələrdən istifadə edərək Zehni Əfəndinin əsərinə xeyli əlavələr etmiş, öz həmdini, həmdiyarları, yaxın qohumlarda olan xanımlar haqda məlumat verərək, əsəri daha də ziynətləndirmişdir. Bəlkə də elə buna görə bəzi tədqiqatçılar "Xeyrati-hesan"ın tərjümə olduğu barədə söz deməmişlər.

---

[7] Jukovskiy V.A. Muxammad Xasan Xan Gtimados-saltang.-Zapiski Vostoçnoqo otdeleniə İmperatorskoqo russkoqo obhestva. Vıp 1-4, SPb., 1896, s.186-191; Kraçkovskiy İ.Ö. İzbrannıe soçineniə, t.4.M-L, 1957, s.539; Ən Ripka. İstoriə persidskoy i tadjikskoy literaturı. M, 1970, s. 317; Xan Məlik Sasan. Siyasətgərani-doureyi-Qajar, j.2. Tehran, 1346 1967, s. 169-184; Yəhya Ariyənpur. Əz Səba ta Nima, j.I Tehran, 1356/1978, s.264-271; Əhməd Gülçin Məani. Tarixi-təzkirehayi-farsi. j.1. Tehran, 1348/1969, s.610-616; Ç.Stori. Persidskaə literatura, t.1, M.,1972, s.491.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Müəllif “Xeyrati-hesan”ın I jildi çap olunduqdan sonra bir nüsxə Məhəmməd Zehni əfəndiyə göndərmiş, ondan öz tərjümeyihalını yazmağı xahiş etmişdir. Zehni əfəndi də bu xahişə əməl etmiş və Məhəmmədhəsən xana məktub göndərmişdir. Həmin məktub “Xeyrati-hesan” ın 2-ji jildində türk və fars dillərində dərj edilmişdir[8].

Məhəmmədhəsən xan Etimadüssəltənə əsərə maraqlı müqəddimə yazmış, yeri gəldikjə onu beytlərlə bəzəmiş, burada öz əməlindən böyük qürur duyduğunu bildirmişdir. O yazır: Nə yaxşı ki, qadir rəssam və ijraçı Fateh anaların bətnində qızlara gözəl surət bəxş etmiş, təbiət də onlara mərifət və kamal vermişdir, hikmət və ədəb qapılarını şərəfli, ağıllı qadınların üzlərinə açmışdır. Haqq bundadır ki, onlar gərək unudulmasınlar ki, bu dünyada yaşamışlar. Onlar çadra altında zehnli, ağıllı olmuşlar, həqiqəti axtarıb meydana çıxarmağa çalışmışlar:

Fələyin qələmi ki, külli jahanı bəzəyir,
Jənnəti də gözəllərin ehsanı bəzəyir.

Ordu məğlub etmiş, ölkə fəth etmişlər
Yüz iş görmüşlər, yüz yol getmişlər.

Etimadüssəltənə Şərqin həm gözəl, həm də mərd qadınını xarakterizə edərək, onların yüksək qiymətini vermişdir.

“Xeyrati-hesan”ın I jildi hijri-qəməri 1304-jü (1886) ildə çapdan çıxmış və “əlif” – “re”, yəni fars əlifbasının I-12-ji hərflərini əhatə edir. Bu jilddə Şərqin bir çox tanınmış qadınları ilə yanaşı Qarabağ hakimi İbrahim Xəlil xan Javanşirin qızı Ağabajı, I Təhmasib Səfəvinin qızı Pərixan xanım, Əmir Çobanın qızı Bağdad

---

8 Ящмяд Эцлчин Мяани, чилд1, с.610



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xatun, qajarlar nəslinin xeyriyyəçi qadınları və başqaları haqqında maraqlı məlumat verilir.

II jild “ze” – “fe”, yəni fars əlifbasının 13-23-jü hərflərini əhatə edir, bu jilddə türk mənşəli misirli hökmdar qadın Şəjərəddürr, Fətəli şah Qajarın xanımı, şairə Tavus xanım, gözəl xəttə malik şair təbiətli qızı Teyyibə, rübailər yazan Aişə Səmərqəndi və başqaları haqqında məlumat verilir. Bu jild 1887-ji ildə nəşr edilmişdir.

III jild “fe” – “vav”, yəni fars əlifbasının 24-32-ji hərflərini əhatə edir. Bu jilddə XII əsirdə yaşamış Məhsəti Gənjəvi, Fətəli şahın oğlu, Azərbayjan valisi Abbas Mirzə Naibüssəltənənin xeyriyyəçi, rəssam və xəttat qızı Fəxrüddövlə (Xanbaba xan və ya Sarı Aslan adı ilə məşhur olan İrəvan sərdarı Məhəmmədhəsən xanın həyat yoldaşı olmuşdur), yaşadığı dövrü məlum olmayan Gövhər bəyim Azərbayjanı, Kirman hakimi və şairə Padşah xatun və başqaları haqqında məlumat verilir. Bu jild isə 1888-ji ildə nəşr edilmişdir.

Yuxarıda göstərildiyi kimi Məhəmmədhəsən xan Zehni əfəndinin əsərinin tərjüməsini jüzi dəyişikliklərlə əsas iş kimi götürərək, öz tədqiqatını da buraya əlavə etmiş, beləliklə öz həmdini, həmdiyarları, yaxın qohumlarda olan istedadlı, məşhur xanımlar haqqında məlumatlarla əsərini zənginləşdirmişdir.

Məhəmmədhəsən xan Etimadüssəltənənin tədqiqatçıları onun tarixi-joğrafi əsərindən bəhs edərkən “Xeyrati-hesan”ın tərjümə olduğunu bəzən unutmuş, onu oricinal əsərləri siyahısına daxil etmişlər. İran tədqiqatçısı Əhməd Gülçin Məani “Xeyrati-hesan”dan geniş bəhs etmişdir. O, özünün ikijildlik “Tarixi-təzkirehayi-farsi” əsərində yazır ki, Xan Məlik Sasani “Siyasətgərani-doureyi-qajariyyə” (Qajarlar dövrünün siyasi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xadimləri) kitabında Seyid Jəmaləddin “Əfqani”, Mirzə Mülküm xan, Əminüddövlə və başqaları ilə bərabər Məhəmmədhəsən xanın həyat və yaradıjılığına geniş yer ayırmış, onun“Xeyrati-hesan”ından bəhs etmişdir. Əhməd Gülçin Məani göstərir ki, Şərq qadınlarının əsərdəki diqqətəlayiq nümayəndələri arasında əlli iki nəfəri farsdilli şairədir. Məhsəti Gənjəvi, Ağabajı, Gövhər Azərbayjani bu qəbildəndir. Türkjə yazmış şairə qadınların sayı isə iyirmi birdir. Ə.Məani “Xeyrati-hesan”da olan bəzi nöqsanları da oxujunun nəzərinə çatdırır. Məsələn, “Xeyrati-hesan”ın I jildində Şah İsmayıl Xətainin zövjəsi kimi təqdim olunan Bəhruzə xanım həmin jildin 81-ji səhifəsində Tajlı xanım adı ilə Şah İsmayılın məhbubəsi kimi verilmişdir. Bu qeyri-dəqiq, mübahisəli olan məsələni tarix elimləri doktoru, professor Seyidağa Onullahi öz tədqiqatında aydınlaşdırmışdır[9].

Eləjə də I jildin 69-ju səhifəsində Padşah xatun haqqında verilmiş məlumat III jildin 47-ji səhifəsində verilmiş Lalə xatuna aid edilir və göstərilir ki, Lalə xatun elə Padşah xatunun özüdür[10].

Əsərin II jildində (s.49) Şamlu Zivərin qəzəlinin sonunju misrası isə həmin jildin 18-19-ju səhifələrində məlumat verilən, teymurilərdən olan Zibünnisə bəyimə aiddir.

Əhməd Gülçin Məani maraqlı bir jəhəti qeyd edir ki, bu da Etimadüssəltənənin “Xeyrati-hesan” əsərinin Mirzə Məhəmməd Məlikülküttab Şirazi tərəfindən oğurlanıb, “Təzkirətül-xəvatin” adı ilə Bombeydə çap olunmasıdır[11]. Əsər haqqında Etimadüssəltənə öz xatirələrində belə yazır:

---

[9] Онуллащи С.М.Тажлы ханым. Азярбайжан ССР ЕА Хябярляри, Ядябиййат, дил вя инчясянят,1981,1, с.44-51.

[10] Ящмяд Эцлчин Мяани. Жилд I, с.610

[11] Ящмяд Эцлчин Мяани. Силд I, с.611



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

“1309-ju il I səfər (1891, 7 sentyabr). Nahardan əvvəl Parisdən təzə bir kitab gətirmişdilər. İran və islam aləmi qadınları haqqında yazılmışdır. Tərif edirdilər ki, İran qadınları Fransanın qadınlarından çox fazil və alimdirlər. Onlar “Xeyrati-hesan” kitabını nümunə göstərdilər. Şah buyurdu ki, bu kitabı nə vaxt yazmısan? Ərz elədim ki, üç jilddir, üç il bundan əvvəl hüzuruna gətirmişdim. Təəjjüb etdi ki, görməyibdir. Xahiş elədim ki, kitabı jildləyib, şah üçün gətirsinlər”[12].

Çapa hazırlanmış bu kitabda yalnız 159 azərbayjanlı-turk qadını haqqında məlumatın fars dilindən Azərbayjan dilinə tərjüməsi verilmiş və şəxsiyyətlərin əlifba sırası gözlənilmişdir. Kitaba qeydlər, jöğrafi, tarixi şəxsiyyətlərin adlar göstərijisi əlavə olunmuşdur.

---

[12] Мящяммядщясян хан Етимадцссялтяня. Рузнамейи-хaтерати- Етимадцссялтяня. Тещран, Мцяссисейи-интишарати-Ямири- Кябир; 1377с./1998, с.767.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## AFAQİ

[S.12] Aşıq Çələbi öz təzkirəsində yazır: “Afaqi təb sahibi olmuşdur və fəsahət və bəlağətli danışanlardan hesab olunur. Lakin onun həyatı və şerləri barədə heç bir məlumatım yoxdur”.

## AĞ QURİ BƏYİM

[S.13] Bedaq Sultanın zövjəsi və Məhəmməd xan Şeybaninin anasıdır. Şeybani xan 855-ji /1451/ ildə onun bətnində dünyaya gəlmişdir.

## AĞSOLTAN XANBİKƏ

[S.12] Mirzə Uluğbəy Gürganinin arvadlarındandır. Sultan Mahmud xanın qızı idi.

## AĞABAJI*

[S. 11-12] Mərhum Fətəli şah Xaqanın möhtərəm zövjələrindən olub, mərhum şuşalı İbrahim xan Javanşirin qızıdır.

* Аьабажы кими танынмыш Аьабяйим (1782-1832) Гарабаь щакими Ибращимхялил ханын гызы олуб, Фятяли шащын он икинжи зювжяси иди вя яввялжя онун сиья иля, сонра ися шащын 4 кябинли гадынларындан биринин, Мящяммяд хан Гажаргованлынын гызы, Аьа Мящяммяд шащын халасы, Сцлейман хан Етизадцддювлянин бажысы, Ибращим Защирцддювлянин вя Мящяммядгулу Мцлкаранын анасы асийя ханым мазандаранда вяфат етдикдян сонра Фятяли шащын гануни зювчяси олмушдур. О, Гумда йашамыш вя 1832- жи илдя вяфат етдикдя орада дяфн олунмушдур.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xaqanın hərəmxanasında son dərəjə hörmət və izzətə malik idi. Bu qadın Həzrəti-Xaqanın hərəmxanasına zəngin, ziynətli və alijənab bir qadın kimi daxil olduğundan hamı ona kamali-ədəblə yanaşırdılar. O, Qarabağdan özü ilə bərabər 200-dən artıq xadimə və nökər gətirmişdi ki, onların da hamısı məşhur, igid və jəsur adamlar idilər. O jümlədən buraya gəlmiş Qarabağ böyüklərindən olan və bu xanımın nəzarətində çalışan Məlik bəy, xanımı, onun ləyaqətinə toxunan, ədəbdən kənar hərəkətlərdən qoruyaraq qayğısına qalırdı. Bu məqsədlə Məlik bəy Qasım imamzadəsi ətrafında bir qəsr tikdirmişdi və çox zaman orada qalırdı. Bu qadın özü çox ağıllı, ləyaqətli və uja idi. Ona görə Həzrəti-Xaqan Fətəli şah ona sahib ola bilmədi və ömrünün axırınadək bakirə idi. Belə rəvayət edirlər ki, zifaf gejəsi onunla şah arasında yalnız bir-iki kəlmə sorğu-sual olmuşdur. Ağabajı səhər iki misradan ibərət aşağıdakı türkçə /azərbayjanja – T.H./ şeri yazıb, Fətəli şaha göndərmişdir:

Yarım gejə gəldi, gejə qaldı, gejə getdi,
/Heç bilmədim/ ömrüm nejə gəldi, nejə qaldı, nejə getdi.

Xülasə, Qum və buraya tabe olan yerlərin gəliri, suyurqal, Qumda iqamət edən Ağabajıya çatırdı. Özünün övladı olmadığından şahzadələrdən Keykavus Mirzə ona oğulluğa və Mürəssə xanım qızlığa verildilər. Ağabajının bajısı qızını Keykavus Mirzəyə ərə verdilər. Mürəssə xanımı isə İbrahim xanın nəvəsi Abasqulu Mötəmidüddövlə Javanşirə nişanladılar və bu iki şahzadə Ağabajının kürəkəni və jəlini oldular. Deyirlər ki, Həzrəti-Xaqan dəfələrlə onun yanına gələrək, bu qadının firavan yaşaması üçün qohumluq əlaqələrini həmişə davam etdirmiş, bunun nətijəsi sonralar görünmüşdür. Belə ki, Ağabajının qohumları Xaqanın övladları olan şahzadələrin ya-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nında mühüm xidmətlərdə olmuşlar. Sonralar Javanşirlər sülaləsi ilə Xaqan xənadanından olan şahzadələr arasında qohumluq əlaqələri davam etmişdir ki, indi də həmin əlaqələr möhkəm və davamlıdır. Xülasə, Ağabaçı ağıllı və şair təbiətli idi, nəzm və nəsrdə məharətli idi. Aşağıdakı şerlər onun düşünjələrindəndir (Şerlərin tərjüməsi verilir).

Tərjüməsi

O kəs bəxtəvərdir ki, xoşbətdir ki, ey janan,
Özünə mənzil salıb yaxın yerdə bağından.
O səfərə çıxanda mən qüssəyə dalaram,
Dəvəsinin boynunda özüm bir zəng olaram.

Tərjüməsi

Ey Naseh, nəsihətin mənə əbəsdir, əbəs,
Ətəkləyər sözlərini, atəşimi söndürməz.

Tərjüməsi

Hüsnünün tərifini həşrə qədər yazsalar,
Nə tərifin qurtarar, nə həsrətim azalar.
/Tərçümə edəni N.Rəfibəylidir /.

## AĞABƏYİM

Heratda yaşamış ali təbəqədən olan bir qadındır, ritmik şerlər yazırdı: Bu şer onundur:

Tərjüməsi

O tordan uzaq ki, onun bağı janımı injidir,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

O dodaqlardan uzaq ki, hər zaman qanlı göz yaşı içirəm.

## AĞA BİKƏ

[S.12.] Mirzə Miran şah Gürganinin qızıdır və Gürganiyyə əmirlərindən Səd Vəqqasın zövjəsidir.818-ji / 1415/16 / ildə Qara Yusif Türkman Sultaniyyə qalasını zorla tutduqda və Əmir Bəstam Jakir ki, Mirzə Şahrux tərəfindən Kutval qalasında idi, Quma tərəf qaçdı və özünü Səd Vəqqasa yetirdi. Sə"d onu həbs etdikdə, Mirzə Şahrux əsəbiləşdi. Əmr etdi ki, onu azad etsinlər. Səd buna itaət etdi və Mirzə Şahruxun qorxusundan Bəstamı özü ilə Təbrizə apardı. Qara Yusif İraqi-Əjəmə getmək qərarına gəldiyi üçün Bəstamı azad etdi və oğlu Əxi Fərəji Quma göndərdi ki, Ağa Bikəni Təbrizə gətirsin. Ağa Bikə ağıllı qadın olduğundan bilirdi ki, Qara Yusif onun sülaləsinin düşmənidir. Ona görə də öz adamları ilə silahlanıb türkmənləri tutdu və başlarını kəsib, Mirzə Şahruxun yanına göndərdi.

## AĞA KUÇEK

[S. 11] Mərhum Şahzadə Seyfulla mirzənin qızıdır. Qamətli, ağıllı, nəzmdə məharəti olan xanım idi. Böyük Səfəvilər sülaləsindən olan mərhum Mirzə Əbdülkərim ibn Mirzə Əbdülvahab Mötəmidüddövlənin anasıdır. Bu şahzadə xanımın nəsli bir tərəfdən mərhum Fətəli şah Xaqana və digər tərəfdən Mötəmidüddövlə Nişatla Səfəvilər sülaləsinə çatır. Bu rübai onundur:

Tərjüməsi

Deyirlər behişt, huri və kövsər əbədidir,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Jəza günü jəhənnəm və məhşər əbədidir,
Əlinin və nəslinin qəzəbi jəhənnəm yanında nədir ki,
Peyğəmbərin məhəbbəti ilə jənnət əbədidir.

## AĞBAŞ

[S. 12] Mirzə Uluğ bəyin qızlarındandır.

## AĞBƏYİM

Sultan Hüseyn Mirzə Gürganın qızı və Əbülqasimin övladı olan Məhəmməd Qasım Mirzənin zövjəsi Juni Bəyimin anasıdır.

## AİŞƏ BİNT MƏHƏMMƏD

[S.168] İldırım Bayazid xan[33] əsrinin üləmalarından Şeyx Məhəmməd Əl-Jəzrinin qızlarından biridir. Xajə “Tarix”-ində yazıldığına görə Aişənin bajıları olan Səlmi və Fatimə də elm və fəzilət əhli olmuşlar. Onlar pərdə arxasından tələbələrə dərs deyirdilər.

## AİŞƏ HÜBBİ

[S.162-163] İstanbulun məşhur şairəsi Sultan Səlim Saninin nədiməsi /həmsöhbəti-T.H./ olmuşdur. Aşıq Çələbi və Qınalızadə Həsən Çələbi öz təzkirələrində onun haqqında yazmışlar. Müşarileyha Şeyx Yəhyanın nəvəsi, Şeyx Ağ Şəmsəddin nəslindən idi, Şəmsi Çələbinin qanuni arvadı olmuşdur. O, Sultan Səlimin yanında şahzadə, məsləhətçi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ustad kimi xidmət etmişdir, səltənətin görkəmli adamı və Sultanın həmsöhbəti olmuşdur. Təzkirə sahibləri deyirlər ki, Aişə Hübbi ondan əvvəl yaşamış Rum və İran şairlərindən, o jümlədən Mehdi və Zeyb, Jəlali və Afaqi, Jahan və Dilşad kimi idi və bəlkə də onlardan üstün idi. Onun qəzəl, qəsidə və məsnəviləri vardır. O jümlədən "Xurşud və Jəmşid" məsnəvisi üç min beytdən artıqdır və gözəl məzmunu vardır. Aşağıdakı beytlər onun təbindəndir:

Dua təmsili Yusif kibi hər dəm
Kim ana müştəridir xəlqi-aləm
Verər hər kişi məqdur nejə gövhər
Anın ta müştərisindən olalar
Sən oldun şimdi həm ol zən misalı
Qəçən ərz eylədi Yusif jamalı
Götürüb nejə riştə əndə bir zən
Xiridar oldu ana janu dildən.

Aişə Hübbi III Sultan Murad xanla ünsiyyətdə olanda Sultana bir qəzəl yazmış, onun şerlərini təqlid etmişdi.

Bu bədii beyt də Aişə Hübbinin fikirlərindən doğmuşdur:

Rastdır rəftarımız manəndi-meyli-Tutiya
Bir hezaran dideyi-məxmurə girmiş-çıxmışız.

"Kəşfüz-zünun" sahibi müşarileyhanın Amasiya şəhəri əhlindən olduğunu yazır, onu Mənla Hübbisi adlandırır.

## AİŞƏ SƏMƏRQƏNDİ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S.159] Səmərqənd əhlindən olan şairədir, çox lətif şerləri vardır. Onun bu iki rübaisi “Atəşkəd”ə təzkirəsində dərj olunmuşdur:

Tərjüməsi
Mənim gözümdən yuvarlanan göz yaşı
Sənin qulağından asılan mirvaridir.
Onu qulağından çıxart ki, səni rusvay edir,
Onu bütün aləm piyalə kimi görür.

Tərjüməsi
Səninlə vüsalımın sirrini gejə açır,
Sübh axşamdan nagəhan açır.
Lakin yüz uzun ömürdənsə,
O jür bir qısa gejə yaxşıdır.

Əvvəlki rübainin məzmunu Jərulla Zəməxşərinin öz ustadı Əbu Mozər Mənsura həsr etdiyi mərsiyənin iki beytinə oxşayır.

## ANİ FATİMƏ XANIM

[S.14] Darusəadeyi-İstanbulun qadınlarından olmuşdur. Ədəbi elmlərdə və şairlikdə məharəti var idi. Həsən xanın sülaləsindəndir, yəni “Tajüt-təvarix”in sahibi Xajə Sədəddin Həsən xanın nəslindəndir. Əmir Ağa adlı bir nəfərlə izdivaj etmiş və ondan bir oğlu dünyaya gəlmişdir. Əmir Ağazadə elmlə məşğul olmuş, əvvəllər dövlət xidmətində çalışaraq müəllimlik etmişdir. Sonra bu işdən ayrılıb. Yenki Şəhrə qazi göndərilmişdir. Anası Ani Fatimə xanım 1122-ji /1710/11/ ildə Yengi Şəhrdə vəfat



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etmişdir. Xülasə, müşarileyhanın osmanlı türkjəsi ilə yazdığı şerlər divanı vardır. Təzkirələrdə onun şerlərindən nümunələr verilmişdir. Bu iki beyt onun təbindəndir:

Xəyali-arizinlə dideyi-səhi gülüstanımdır,
Açılmış şərhələr sinəmdə nəxli-ərğəvanımdır.
Ümmidi vəslətin, ey qaşları yay, sinədən keçməz
Xəyali-tiri-qəmzən, Aniya, xatiri-nişanımdır.

/Rzaəddin ibn Fəxrəddin "Məşhur xatunlar" kitabnıda bu xanımı ədibələr sırasında qeyd etmişdir – T.H./.

## ARAMJAN BƏYİM

[S. 6.] Sultan Məhəmməd Mirzə ibn Jəlaləddin Miran şah ibn Əmir Teymur sahibqiranın zövjəsidir. Bu qadın Sultan Məhəmməd Mirzəni öz gözəlliyi və ağlı, zəkası ilə elə məftun eləmişdi ki, dövlətin bütün ixtiyarını onun əlinə vermişdi. Hökumət işlərini demək olar ki, o, idarə edirdi. Bu qadının və ərinin hakimiyyəti hijri 830-ju ildən 855-ji /1426-1451/ ilədək davam etmişdir.

## ARSLAN XATUN*

[S. 16] Səljuqilərdən Toğrul bəyin qardaşı Davud ibn Mikayıl ibn Səljuqun qızı Xədijədir. O, hijri 448-ji /1056/ ildə Abbasi xəlifələrindən 26-jı xəlifə Qazi Biəmrullah ibn Qadirə nigah edilmişdir. İnşallah "X" hərfindən ondan bəhs olunajaq.

---

* Арслан Хатун Бюйцк сялчуг падшащларындан Тоьрул Султанын бачысыдыр. Бах: "Тцрк бюйцкляри". Истанбул, 1339/1921,с.9



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ASİYƏ XANIM

[S. 10.] Fətəli şah Xaqanın anasıdır. Yuxarıbaş tayfasının möhtərəm qadınlarındandır. Xeyriyyəçiliklə məşğul olan bir qadın kimi məruf və məşhur idi. Bütün ömrünü gözəl əməllər, ibadət və xeyirxahlıq etməklə keçirmişdir. Ömrünün axırlarında, yəni h. 1213-jü ilin zilhijjə ayında / 1799, may / Ətəbatı[1] ziyarət etmiş və həmin ayın ortalarında Xorasana getmişdir. Bu möhtərəm qadın h. 1217-ji / 1802 / ildə Tehranda vəfat etmiş, Nəjəfi-Əşrəfdə dəfn olunmuşdur.

## ASİYƏ XANIM

[S. 11] Jənnətməkan məğfur Fətəli şah təbəssərahın qadınlarından olub, mərhum Əmir xan Sərdarın bajısı, Fətəli xan Qajar Dəvəlunun qızıdır. Böyük jəlal sahibi, yüksmək mövqe tutmuş, mərhum Abbas Mirzə Naibüssəltənənin anasıdır ki, onu dünyaya gətirməklə bu məmləkətə nur bəxş etmişdir. O, çox xeyirxah insan olduğundan xeyriyyəçiliklə məşğul olmuş, hər zaman bu işdə çalışmışdır.

Naibüssəltənə Abbas mirzə 1203-jü il zilhijjə ayının 4-də /1789, 28 avqust/ anadan olmuşdur. /Bu tarix belədir, Etimadülsəltənənin “Miratül-büldani Nasiri” əsərində bu tarixi h. 1200-jü il 14 zilhijjə ayı kimi göstərməsi xətadır- T.H./.

## AZDEH XATUN /haşiyədə /

[S. 6.] Nərmşirin xanın qızı, Əmir Hüseynin arvadının anası, Əmir Teymurun nənəsi olmuşdur. Əmir Hüseynin yanında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

böyük etibar və nüfuza malik idi. Çox zaman Əmir Teymurla Əmir Hüseyn arasında yaranan düşmənçilik onun vasitəsilə aradan qaldırılırdı.

## BAĞDAD XATUN

[S.77.] Çingiz xanın nəslindən olan məşhur Əmir Çobanın qızıdır. Əmir Çoban Səid Bahadur xan zamanında Əmirülümərа kimi yüksək mənsəbdə idi. Çobanilər qırx il müstəqil hökmranlıq etmişlər. Onlar Çingiz xanın nəslinə mənsubdurlar. Bağdad Xatun lətafətdə və məlahətdə məşhur qadın olmuşdur və o dövrün böyüklərindən sayılan Şeyx Həsən Kəbirin zövjəsi idi. Sultan Əbu Səid ona aşiq idi. Şeyx Həsən əlajsız olaraq onu boşadı və Sultan Əbu Səid onunla evləndi. Bu adət moğol sultanları dövründə qəbul olunmuşdu. Belə ki, “Səhayəf-ül-əxbar”ın müəllifi deyir:

“Çingiziyyə məlikləri dövründə belə bir adət var idi ki, hər kəs bir kəbinli qadına meyl edirdisə, o qadının əri arvadınının talağını verirdi və padşah o qadına evlənirdi. Xülasə, Sultan Əbu Səidin Bağdad Xatuna hədsiz məhəbbəti olduğu üçün bütün məmləkətin işlərini onun ixtiyarına vermişdi. Bu səbəbdən bu qadını padşah adlandırırdılar. Sultan Əbu Səidin ölümündən sonra onun yerinə əyləşən Arpa xan Bağdad xatunu güya ərini zəhərləməkdə günahlandıraraq edam etdi.” /Əlavə məlumat üçün bax: Məşhur xatunlar, s. 22/.

## BƏDRNİSƏ XANIM



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 202-203] Mərhum Xaqan Fətəli şahın zövjəsi, böyük Əmir Mustafa xan Qajarqovanlının qızıdır. Mustafa xan Fətəli şahın əmisidir. Zəmanənin nadir qadınlarından olan Bədrnisə xanım vüqarlı, ağıllı bir insan olmuşdur. O, təkjə daxili zənginliyi ilə deyil, əməlləri ilə də tanınırdı. Onu ujaldan gördüyü xeyriyyəçi işləri idi. Müqəddəs məkan olan Kazimeyndə həmin işlərdən yadigar qalmışdır. Kazimeynin qızıl suyu ilə işlənmiş dörd minarəsi onundur. Mərhumə Hajı, müəllifin /Etimadüssəltənənin-T.H./ validəsinin əmisi arvadı idi.

## BƏHRUZƏ XANIM

[ S. 80] Hijri X əsrin əvvəllərində İranda hakimiyyətə gəlmiş Səfəviyyə padşahlarından I Şah İsmayılın zövjəsidir. Bəhruzə xanım Şah İsmayılın Osmanlı Sultanı Sultan Səlim xanla apardığı Çaldıran müharibəsində ölümsaçan meydanda olduğu üçün əsir düşmüşdür. Bəziləri Bəhruzə xanım əvəzinə Tajlı xanım yazırlar və "Səhayifül-əxbar"ın müəllifi Tajlı xanımı Şah İsmayılın qanuni zövjəsi yox, məhbubəsi hesab edir.

## BƏYİM DƏHLƏVİ

[S. 81] Bəyim Dəhləvi Şahjahanabadidən olan şairə idi. Bu şer onundur:

Tərçüməsi

Əgər o günəş üzlü mənə qismət olarsa,
Padşahlıq nədir, allahlıq iddiasında olaram.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## BƏYİMJAN XANIM

[S. 81] Jənnətməkan mərhum Fətəli şah Xaqanın birinçi arvadından olan qızı idi. O, Qadir xan Ərəb Bəstaminin qızı Bədirjan xanımın bətnində dünyaya gəlmişdir. Bundan bir qədər əvvəl onun haqqında danışmışıq. Bəyimjan xanıma Xanbajı da deyirlər. Mərhum Məhəmməd Qasım xana ərə getmişdi. Xaqan bu qızı ilə daim əlaqə saxlamışdır. Onu səfərlərində özü ilə aparar, hüzuruna gələnləri onunla birlikdə qarşılayardı. Bəyimjan xanım ürfan əhlinə mail idi və əsrin məşhur adamlarından sayılan mərhum Hajı Molla Rza Həmədaninin şagirdi idi. O, hər il öz hörmətli şeyxinə böyük pul məbləği hədiyyə edirdi. Mərhum Xaqan onun əri Məhəmməd Qasım xan Əmirə çox rəğbət bəsləyirdi və padşahın bütün kürəkənləridən biri də Bəyimjanın bajısı Hümayun xanımın əri Məhəmməd ibn Rəhim xan Zəhirüddövlə padşahın süfrəsinin və məjlislərinin başında əyləşirdi.

## BƏZMİ-ALƏM

[S. 76] II Sultan Mahmud xanın zövjəsi və Osmanlı sultanı mərhum Sultan Əbdülməjid xanın anasıdır. Xeyirxah əməlləri olan qadın olmuşdur və yaxşı işlər görmüşdür. Bir neçə məsjid və su ambarı, məktəb binası tikdirmişdir. Onun mühüm binalarından biri xəstəxanadır ki, İstanbulda Yenki Baxça tərəfdədir. Orada həmişə 150 xəstə müalijə olunur. Bu mərizxanaya vəqf olunmuş vəsaitin hesabına xəstələr yemək və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sair ləvazimatla təmin olunur. Xəstəxananın baxçası burada havanı lətafətli edir.

## BİNT XUDAVERDİ

[S. 79] Dünyanın qəribə hadisələrindən olan sirli insanlar barədə yazanlar belə qənaətə gəlmişlə ki, Bint Xudaverdinin 624-ji/ 1226-27/ ildə İskəndəriyyədə yaşadığı məlum olmuşdur. O, anadangəlmə qolsuz idi. Sinəsi kişi sinəsi kimi idi. O, ayaqları ilə qələm tutur və yazırdı, rəsmixəttinin dürüstlüyü haqqında ən mahir xəttatlar şəhadət verirdilər. Misirin dövlət adamlarından biri onu yanına çağıraraq, ounun qabiliyyətini imtahan edib, vəzifə vermişdi. Deyirlər ki, müşarileyhənin məqbərəsi indi İskəndəriyyədədir və vəqf olunmuşdur /bidəst deməklə məşhur olması İran tərəfindən olduğuna işarə edir –Məşhur xatunlar, s. 23/.

## JAHAN

[S. 94] Səfəvi padşahı I şah İsmayılın zövjələrindən birinin adıdır. Şer yazmaq qabiliyyəti var idi. Lakin onun zehninin məhsullarından əldə heç bir şey yoxdur. Ona aid edilən bir beyt Həyatın tərjümeyi-halında verilmişdir.

## JAHAN XANIM

[S. 92] Nəsrəddin şah Qajarın anasıdır. Çox ağıllı və tədbirli qadın idi. O, Nəsrəddin şahın Təbrizdən Tehrana gələrək şahlıq



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

taxtına əyləşməsi mərasimini təşkil etmişdi. Hijri qəməri 1290-jı /1873/ ildə dünyasını dəyişdi.

## JAHAN XATUN

[S. 94] Şairə dövlətli qadın olub, Übeyd Zakaninin müasiri idi. Onun zərif şerləri həmişə şer məjlisində hazır olurdu, ona çox hörmət və ehtiram bəsləyirdilər. Bu gözəl beyt onundur:

Tərjüməsi
Elə bir rəssamdır ki, sudan sürət çəkir,
Zərrə-zərrə günəşin xalını çəkir.

## JAHANARA BƏYİM

[S. 94] Hindistan sultanlarından Şah Jahanın qızıdır. "Mümtaz Məhəl" təxəllüslü Ərjümənd Bəyim onun anasıdır. Onun tərjümeyi-halı bu kitabda yazılmışdır. Ritmik şerlər yazmaq təbi olduğu məlumdur. O, Jəmilə səxavətli bir qadın olmuşdur. Onun məqbərəsi Dehlidə Şah Nizaməddin övliyanın yanındadır, bu yer Zərərzibəxş kimi məşhurdur.

Onun vəfat tarixi h.1092-ji /1681/ ilə təsadüf edir. Məzarının sinə daşı üzərində özünün yazdığı aşağıdakı şer vardır:

Tərjüməsi
Mənim qəbrimi yaşıl otdan başqa bir şey örtməyəjək,
Qəriblərin qəbirlərinin üstünü elə otlar örtsə bəsdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## JAHANİ

[S. 94] Dehlidən olan bu şairə qadın əmirlərdən birinin zövjəsi idi. Bu beyt onundur:

Tərjüməsi

Bağda kül ilə o qönçədəhanın üzü-hər ikisi birdir,
O, rənanın qəddi ilə çəməndə sərv-hər ikisi birdir.

## JANAN BƏYİM

[S. 88] Hindistan məmləkətinin qadınlarındandır və atası Əbdürrəhim xandır. Ləqəbi Jani-janan olub, elm və fəzilətdə məharətli idi. Qurani-Kərimə təfsirlər yazmışdır. Hind sultanlarından olan Jahangir paşa onun gözəlliyi, mənəfi fəzilətləri haqqında eşidərək, ona evlənmək üçün elçi göndərmişdi. Janan Bəyim öz dişlərini çıxarıb, saçlarını kəsb, bir qutuya qoyaraq padşahın yanına göndərdi. Padşah onun bu hərəkətini namuslu olmasına dəlil bildi, təhsin etdi. Müşarileyiha 1070-ji/1660/ ildə vəfat etmişdir. Bu bir beyt şer onundur:

Tərjüməsi

Aşiq sənin eşqinin ləyaqətindən jan gizlədir,
İki nəmli gözünün qan ağladığı görünür.

## JANFƏDA QADIN

[S.87-88] Qadın sözü xatun sözünün təhrif olunmuş şəkli kimi nəzərə alınır. Hər halda bu qadın Osmanlı sultanı III Sultan Murad xanın saray hərəmxanasında qayət etibar və iqtidara malik



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

idi və mühüm işlərin ijrasına müdaxilə edirdi. Mühüm əhəmiyyət kəsb edən işlərin həlli, irəli getməsi onun vasitəçiliyi ilə olurdu. Sultan Murad xandan sonra da onun həmin nüfuzu və qüdrəti qalmışdı. Bu qadın bir sıra xeyriyyəçi işlərlə məşğul olmuş, o jümlədən İstanbulda Jümə məsjidi tikdirmiş, su anbarı düzəltdirmişdi. Ən ümdə xüsusiyyəti o idi ki, zalımı rəzil hesab edirdi və bu səbəbdən qardaşı İbrahim paşanın etdiyi zülmləri onu bajılıq məhəbbətini kənara qoymağa məjbur etdi. Janfəda qadın onu həbs edib, qətlə yetirdi.

## JƏMİLƏ

[S.89] Həmədan məliklərindən Nasirülddövlənin qızıdır. Onun alijənablığı və səxavəti haqqında çox deyilmişdir. O jümlədən yazırlar ki, bu qadın hijri 666-jı /1268/ ildə müqəddəs Məkkəyi-Mükərrəməni ziyarət edərkən, böyük səxavət göstərmiş, xeyriy-yəçilik etmişdir. Orada bütün hajılara şərbət paylamış və Məkkəyə 10.000 dinar bağışlamış, 300 qulam və 200 kəniz azad etmişdir. 500 baş heyvanı piyada olan hajılara ayırmışdır. Xülasə, bu səfərdə onun xeyriyyəçiliyi o qədər yadda qalan olmuşdur ki, həjj səfərinə getmiş jamaat Ümmi Jəfər Zibeydənin xeyratını unutmuşdular. Çünki, Jəmilə ili çox məşhur olmuşdur. Belə ki, hansı il xeyir-bərəkət çox olurdu, o ili Jəmilə ilə adlandırırdılar.

Jəmilə adında on iki nəfər səhabə qadın /Məhəmməd/s/ peyğəmbərin tərəfdarları/ olmuşdur.

## DİLŞAD



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 129] İranda bəlağətli şairələrdən olmuşdur. Bəziləri deyirlər ki, Fətələi şahın zövjələrindən birinin adı Dilşad idi. Vəznli şer yazmaq təbi var idi. Bu şeri onun adı ilə bağlayırlar:

Tərjüməsi

Münkər itaəti məhəbbətdən qəbul etməz,
Zəmzəm suyunda yüz dəfə dəstəmaz alsa da.

## DİLŞAD AĞA

[S. 129] Əmir Teymurun zövjələrindən biri olub, Əmir Qəməreddinin qızıdır!

## DİLŞAD XATUN

[S. 128-129] Teymurtaş[7] ibn Əmir Çobanın qızı, Şeyx Həsən Kəbir kimi məşhur olan Əmir Şeyx Həsən Elkaninin zövjəsi idi. Sultan Üveysin[8] anasıdır. Xajə Jəmaləddinin Savəji Sultan Üveysə mədhnamə yazmışdır ki, bu təntənəli qəsidə onun taxta çıxmasının maddeyi-tarixidir:

Tərjüməsi

Xoşxəbər bu səadəti yüksəyə qaldırdı,
Bütün dünya bu xəbəri alqışladı,
Ki, yeddi yüz əlli yeddinin rəjəbində,
İnsanların ittifaqı, Allahın köməyilə,
Jahan şahlarının layiqli varisi
Səltənətin padşahı Şeyx Üveys Xosrov
İraq mülkünün padşahlıq taxtına əyləşdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dilşad xatun 752ji/1351/52/ ildə Bağdadda vəfat etmiş, jənazəsi Nəjəfi-Əşrəfdə dəfn olunmuşdur. Bəziləri deyirlər ki, Şeyx Həsən Dilşad xatunun əmisi oğlu Əşrəf ibn Teymurtaşa məftun olduğunu görüb onu zəhərləmişdir. Səlahəddin Səfədi yazır: "Şeyx Həsənin hakimiyyəti dövründə külli-ixtiyar Dilşad xatunun əlində idi, dövləti o idarə edirdi. O, qəriblərə mərhəmət edir, kasıblara ehsan verirdi".

## DİLŞAD XATUN

[S. 129] Əmir Əli Jəlairinin[10] qızı və Əmir Həsən Jəlairinin zövjəsi olmuşdur. Onun əri bir müddət Bəlxin hökmdarı olmuşdur. O, yaxşı təbə malik idi və bu iki beyt onun təbindəndir:

Tərjüməsi

Gözümdən üzümə süzülən göz yaşları,
Üzümdə qanlı iz salmışdır.
Ürəkdə olan müşkülüm həll olsa da
Eşqdən çəkdiyim qəmə əlaj olmur.

## DÖVLƏT XATUN

[S. 132] "Səhayif-ül-əxbar"ın müəllifi yazır: "Dövlət xatun Atabəylər /Xurşidiyyə/ sülaləsindən idi. Bu sülalə hijri 570-ji /1174/ ildən ta h.810-ju /1407/ ilədək Xürrəməbadda hakim olmuşdur. Dövlət xatunun əri İzzəddin Məhəmməd hijri 711-ji /1311/ ildə vəfat etmişdir. Dövlət xatun ondan sonra hökuməti idarə etməyi öz əlinə almışdır. Lakin tatarların ölkəni istilası təhlükəsi zamanı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müqavimət qüvvələrini idarə etmək məqsədilə hakimiyyəti idarə etməyi İzzəddinin qardaşına tapşırmış, onun öhdəsinə buraxmış, özü isə bunları izləmişdir.

## **DÜRRİ-ŞAHVAR**[6] xanım

[S. 126] I Sultan Əbdülhəmid xanın qızı, Əhməd Nəzif Əfəndi çavuşbaşının zövjəsi olub, Xanım Axirət kimi məşhur idi. O, Sultanın jariyyələrindən olduğu üçün ona rəsmən sultanzadəlik elan edilməmişdir.

## ƏDHƏM JASİ

[S. 16] “Mumtaz Məhəl” təxəllüslü və Qüdsi bəyim adı ilə məşhur olan Ədhəm Əbülfəth Məhəmməd şah ibn Jahan şah ibn Bahadur şahın /Hindistan padşahıdır – T.H./ zövjəsi, gözəl bir qadın idi.

Əri Məhəmməd şahın vəfatından sonra Dehli şəhərinin kənarında səfalı bir bağ saldırıb, adını Qüdsiyyə qoydu və indi də Dehlinin xarijində məşhur Kəşmiri darvazasının yanında o bağın darvazasi qalır. Qüdsiyyə bəyim “Rənayi”təxəllüsü ilə şer yazırdı /Müəllif onun Hind dilində bir beytini də dərj etmişdir/.

## ƏFAF[34]

[S. 184] Mərhum Xaqan Fətəli şah Qajarın əmizadələrindən olub, mərhum Şahzadə Heydərqulu mirzə ibn Xaqanın zövjəsidir. O, şikəstə xəttini xoş xətlə yazardı. Qəribə elmlər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dəmünasibəti var idi. Şer də yazırdı. Aşağıdakı beytlər onun düşünjələrindən yaranmışdır:

Tərjüməsi

Mən bir quşam ki, ovçunun torunda olsam da
Azad quşla heç bir fərqim yoxdur.
Ey dil, eşq məhəlləsində xəbərin olsun
Ki, orada yolkəsən də ajizdir.

Ey bülbüli-zar, gül fəslində nə nalə edirsən?
Onsuz da sənin kədərindən gülün xəbəri yox.

## ƏKƏ BİKƏ

[S. 30] Əmir Teymur Gürganinin qızı olan bu qadın Təğa şah və yaxud Əkə Bikə ləqəbi ilə tanınırdı, o, Məhəmməd bəy ibn mir Musanın zövjəsidir. Əmir Teymur onu öz digər övladlarından çox istəyirdi. Əkə Bikə h. 784-jü / 1382-ji/ ildə Əmir Teymurun ordusu Buxarada olan Zənjir Sarayda qışlayarkən vəfat etmişdir. Onun bir oğlu qalmışdı ki, adı Sultan Hüseyn idi.

## ƏKƏ BİKƏ

[S. 30] Mirzə Uluğ bəy Gürganinin birinji zövjəsi olmuşdur. Onun Xanzadə bəyim adlı qızı iki yaşında vəfat etmişdir.

## ƏLƏMŞAH BƏYİM[36]



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 187-188] Səfəvi padşahı I Şah İsmayılın anası, Əbunnəsr Həsən bəy Bayanduri Ağqoyunlunun / ona Uzun Həsən deyirlər/ qızıdır. Atası Həsən bəy Şeyx Səfiəddinin nəslinə rəğbət bəslədiyi üçün öz qızını Sultan Heydərə ərə vermişdi və Şah İsmayıl və iki qardaşı: Sultan Əli və Seyid İbrahim Sultan Heydərlə Ələmşah Bəyimin övladlarıdır. Bəziləri bu qadının adını Həliməbəyi Ağa kimi yazırlar.

## ƏRJÜMƏND BANU BƏYİM

[S. 16] "Mumtaz Məhəl" təxəllüslü olub, Hindistanda Teymur sülaləsindən padşah Şihabəddin Məhəmməd şah Jahan ibn Nurəddin Məhəmməd Jahangir şahın birinçi zövjəsi idi. Gözəl və ağıllı olduğu qədər mehriban, şaha çox bağlı idi və hər gün, daim onun yanında olurdu. Onun dörd oğlu və dörd qızı var idi. Oğlanlarının adı; Dara Şikvə, Şah Şüja, Mirzə Murad və Övrəng Zib idi.

Qızlarına Ənjümənara, Dəhrara, Kiytiara və Jahanara adı vermişdilər. Ərjümənd Banu bəyim öldükdən sonra / 1630 / əri onun xatirəsinə Əkrə /Aqra/[3] və ya Əkbərabad şəhərində böyük bir sahədə bağça saldırdı. İndi o yer "Taj Bibi qübbəsi" kimi məşhurdur. /Hijri 1304-jü /1887/ ildə-T.H./ Şihabəddin Məhəmməd şah Jahan hijri 1037-ji ildən 1057-ji ilədək səltənəti idarə etmişdir / 1627-1647 / O, Taj-Mahalda dəfn olunmuşdur. /Əlavə bax: Rzaəddin ibn Fəxrəddin, Məşhur xatunlar B.,1993, s.19-20. Bundan sonra Məşhur xatunlar … /.

## ƏSMA İBRƏT



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 28-] İstanbul qadınlarından olub, məşhur xəttat Mahmud Jəlaləddinin zövjəsidir. Əhməd Ağa Sərxassə Kəyan Xassənin qızıdır. Hüsnxətdə öz həyat yoldaşı səviyyəsində məşhur idi. Gözəl xətlə yazmağı ondan öyrənmişdi. Bu sənətə meyl və rəğbətini görən əri Jəlaləddin gözəl xətlə yazmağı bütün nöqtələrinə qədər ona öyrədirdi. Onun xətti o qədər kamilləşdi ki, bu xətt Jəlaləddin bəyin ömrünün sonlarında onun xətti ilə bir səviyyədə idi. Jəlaləddin hətta Əsmanın bir çox yazılarını öz adına çıxarırdı. Əsmanın əla xətlərindən biri onun h. 1222 –ji /1807/ ildə yazdığı lövhədir.

Əsma adlı digər qadınlar da olmuşlar ki, kitabda onlar haqqında məlumat verilmişdir. İbn əl-Əsir on bir nəfər Əsma adlı qadından bəhs etmişdir və qeyd etmişdir ki, onların hamısı Məhəmməd peyğəmbərin səhabələrindən olmuşlar.

## FATİMƏ BİNTİ-İBRAHİM

[S. 9] Süleyman əfəndi Müstəqimzadə öz təzkirəsində yazır: “Fatimə Binti-İbrahim məşhur qadınlardan biridir və mənim xalamın qızıdır. Müşarileyhə məşhur xəttat Mahmud əfəndi Toqaninin zövjəsidir, nəsx və süls xətlərini də öz ərinin yanında öyrənmişdir, yaxşı, xoş xətlə yazırdı”.

## FATİMƏ ƏL-FƏQİHƏ

[S. 16-18] Əlaəddin Məhəmməd ibn Əhməd Səmərqəndinin qızıdır. Mötəbər, məşhur bir kitab olan “Töhfətül-füqəha”nın müəllifidir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Atası onu mövlana Əlaəddin əl-Kaşaniyə ərə vermiş və mövlana həmin “Töhfətül füqəha” əsərinə şərh yazmış, onu “Bədaye-üs-sənaye fi tərtib əş-şəraye” adlandırmışdır. Əsəri şərh edəni müəllif hesab edirdilər.

Əlaəddin Kaşani öz zövjəsi və onun atası ilə, hər üçü Kaşanda bir evdə yaşayırdılar. Onlar əhalinin hüquqi məsələlərə aid sorğularına javab verirdilər, yəni fətva[38] verirdilər. Əgər Əlaəddin Kaşani hər hansı bir məsələdə çətinliklə qarşılaşır, şübhə edirdisə, o zaman Fatiməyə mürajiət edirdi, birlikdə həll edirdilər. Bir müddət keçdikdən sonra onlar Hələbə köçərək orada yaşadılar. Bir qədər Hələbdə qaldılar, lakin zövjəsi Fatimə Kaşana getmək arzusunda olduğundan, mövlana onun arzusunu yerinə yetirərək, Kaşana qayıtmaq istədi. Dövrün hakimi Məlik Nurəddin əş-Şəhid bu qərardan agah olub, Əlaəddini çağırdı və ondan xahiş etdi ki, Hələbdə qalsın. Əlaəddin javab verdi ki, bu meyl və qəsd mənim əyalım tərəfindəndir. O, ustad və mənim müəllimim olduğu üçün onun arzusuna müxalif olmağı rəva bilmirəm, ona tabe olmağı lazım hesab edirəm. Sultan Mövlana ilə qərara gəldilər ki, Xajəni öz tərəfindən Fatimə əl Fəqihənin yanına göndərsin və xahiş etsin ki, Hələbdə qalsın. Xajə sultanın əmrini Fatiməyə çatdırdı. Fatimə həmin xajə vasitəsilə ərinə xəbər göndərdi ki, aya, sən fəqahət aləmindən bu qədər uzaq düşmüsən ki, bu xajənin mənə nəzər yetirməyinin başqa kişilərdən çox haram olduğunu bilmirsən? Xajə Fatimənin bu xəbərini Sultanın hüzurunda Əlaəddinə yetirəndə Sultan Fatiməyə xüsusi bir məktub yazdı, öz mətləbini orada dərj elədi və bir qadın vasitəsilə onu Fatiməyə göndərdi. Fatimə Sultanın xahişini qəbul etdi və uzun müddət Hələbdə qaldı. Orada da vəfat etdi. Məşhur “Qobur-üs-salehin” də / “Mö-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

minlər qəbiristanı”/ olan məqbərədə dəfn olundu. Fatimənin vəfatından bir qədər sonra Əlaəddin də həyatını dəyişdi və Fatimənin qəbrinin yanında dəfn olundu. Hələb jamaatı bu ər-arvadın qəbrinə ehtiram bəsləyirlər.

Fatimə əl-Fəqihə xoş xətlə yazdığı üçün Müstəqimzadə “Təzkireyi-xəttateyn” də ondan bəhs edərək yazır ki, o zaman Fatimənin yanına gələnlər üçün Fatimə işə fitva yazaraq imza edəndən sonra bu fitvaya onun atası və əri də imza qoyurdu. Fitva bu üç imza ilə ijra olunurdu.

## FATİMƏ XANIM

[S. 19] O, mərhum xaqan Fətəli şah Qajarın xanımlarından olub, Sərvijahan xanım adlı qız dünyaya gətirmiş, onu mərhum Ağa xan ibn Şah Xəlilullaha vermişlər. Sərvijahanın övladları Hindistanda İsmailiyyədə yüksək vəzifələr tutmuşdular.

## FATİMƏ ŞƏBSƏFA QADIN

[S. 16] Osmanlı padşahı Sultan Həmid xani-əvvəl zamanında, onun sarayında yaşamışdır. O, Sultana böyük məhəbbət bəsləmişdir. Deyirlər ki, bir gün o, Sultanın görüşünə gedən zövjələrdən birinin barmağına qiymətli bir üzük taxaraq, Sultanın görüşünə göndərmişdir. Bu iş Sultana xoş gəlmiş və o, dərrakəli müşarileyhənin adına bir məktəb və bir jame tikdirmişdir ki, həmin məsjiddə dəfn olunmuşdur.

## FƏXRİ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 23] Şahzadə xanım Fəxri mərhum Xaqanın qızlarından olub, gözəl təbə malik şairə idi. Xaqanın oğlu Mahmud Mirzə "Noqle məjlis" adlı təzkirəsində yazır: Fəxri Fətulla Mirzənin böyük bajısıdır. Çox ismətli, iffətli, hazırjavab olub şairə xas olan xüsusiyyətləri məndən öyrənmişdir. Aşağıdakı beytlər onun şerlərindən seçilmişdir:

Tərjüməsi

Yarəbb, məhəbbət bəladır deyirlər,
Heç kəsi bu bəladan azad etmə!

Tərjüməsi

Dedi, mənim vəslimin xəyalını ürəkdən çıxart,
Dedim, jan ağrısından qurtulmaq çətindir.

Tərjüməsi

Növjavanlar ki, belə nazlıdırlar,
Qojalıb ölməyə həsrət qalajam.

## FƏXRİJAHAN XANIM

[S. 22] Fəxrüddövlə ləqəbli olan bu xanım mərhum xaqan Fətəli şah Qajarın çox möhtərəm qızlarından biridir. İzzədüddövlə özünün "Tarixe İzədi" əsərində onun haqqında yazır ki, Fəxrijahan xanım Sünbül xanımın qızıdır və Xaqanın zamanının gözəl qızlarından biridir. Atası ona çox zəngin həyat şəraiti yaratmışdı. Əmisi oğlu Məhəmməd xanla 9 illik uğursuz izdivajdan sonra ömrünün axırınadək tənha yaşamışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## FƏXRÜDDÖVLƏ

[S. 22] Nəsrəddin şahın səxavətli, hörmətli qızlarındandır. İnjəsənətin bir çox növlərində, o jümlədən rəssamlıq, mozaika, xəttatlıq sənətində çox məharətli və qabildir. O bu işlərdə məşhurdur. Bu qadın çox səxavətli, xeyriyyəçi və əltutandır və bu işlərdə səy edir.

## FƏXRÜDDÖVLƏ

[S. 23] Hajı Mahruxsar xanım rəhmətlik Abbas Mirzə Naibüssəltənənin qızı, mərhum Məhəmməd şahın doğma bajısıdır. Müşarileyha dövrünün çox məşhur qadınlarından hesab olunurdu. Xeyriyyəçilikdə onun tayı-bərabəri yox idi. Tanıdığı köməksizləri məəttəl qoymurdu. Namuslu və mərdanə olan bu qadının şerdə və rəssamlıqda, həmçinin xoş xətlə yazmaqda əvəzi yox idi. Mühakimə və ağlı zərbülməsələ çevrilmişdi. Dövrünün görkəmli şəxsiyyətlərindən biri olan və Xanbaba xan adı ilə məşhur olan İrəvan sərdarı Məhəmmədhəsən xan onunla ailə qurmuşdu. O, çox ağıllı olan zövjəsi ilə fəxr edirdi. Ondan bir sıra yaxşı işlər və vəqf olunmuş şeylər yadigar qalır.

## FƏXRÜLMÜLUK

[S. 22] Əlahəzrət şahənşah Nəsrəddin şahın böyük qızlarından biridir. Onun şer yazmaq təbi vardı. İsmətli qadının yazdığı şerləri rəvan, injə mətləb ifadə edən, lətif, fəsih və bəlağətli olub, "fəxri" təxəllüslə yazılırdı. O, hər il atasının təvəllüd günündə təbrikini şerlə ifadə ediridi və bu münasibətlə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şahdan ona çatan ənamı fəqir-füqəraya verərək, xeyriyyəçilik edirdi. Bu, ənənə halını almışdı.

## ŞAİRƏ FƏRİDƏ

[S. 25] Fəridə xanım kimi məşhur olan tanınmış bu qadın İstanbul ədibəlrindəndir. Bəziləri onun əslən Qəstumunlu olub, İstanbulda sakin olduğunu deyirlər. O, Rəşid əfəndinin qızı, Raif əfəndi Katibin zövjəsidir. Bu məşhur qəzəl onundur:

Fikr edüb, bəxti-siyahəm, qəti yandım bu gejə,
Jövri-dildar ilə janımdan usandım bu gejə.
Şul qədr hijrin ilə axdı gözümdən xunab,
Başdan ayağadəkin qanə buyandım bu gejə.
Xəb içində görüb ol mahi, olunja bidar,
Şövqi-hüsni ilə ətrafım arandım bu gejə.
Çərx etdimsə, nola, simi-sirişkim yoluna,
Sən kibi bir mehi-namehri qazandım bu gejə.
Şöylə məst etdi bəni jami-meyi-möhnəti eşq,
Bilmədim, yarimi biganeyi sandım bu gejə.
Şəbi-firqət uzadı dərdi-məhəbbət kibi, a,
Gah xabidə olub, gah oyandım bu gejə.
Ahü zarimə baxıb qıldı tərəhhüm bana yar,
Ey Fəridə, hələ bən andan utandım bu gejə.

## FİTNƏT

[S. 30] Məşhur osmanlı qadınlarından olub, Şeyxulislam Məhəmməd Əsəd əfəndinin qızı, Şeyxulislam Məhəmməd Şərif



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əfəndinin bajısıdır. Zibeydə adı ilə məşhur şairə olmuşdur. Onun əri Dərviş əfəndi Sultan Əbdülhəmid xani-əvvəl dövrünün alimlərindəndir. O, Fitnət xanım kimi elm və bilik sahibi olmasa da, yenə III Sultan Səlim xan zamanının nüfuzlu qəbilə başçılarından biri idi.

Fitnət xanım Raqib Paşa dövründə məşhur idi, lakin Sultan Əbdülhəmid xan dövrünün əvvəllərini də xatırlayırdı. O, şerlər oxumaqda son dərəjə məharətli idi. Aşağıda dərj edilmiş qəzəl onundur:

Güllər qızarır şərm ilə, ol qönçə gülünjə,
Sünbül xəm olur, rəşk ilə kakil bükülünjə.
Ənqa dəxi olursa, düşər pənjeyi-eşqə,
Seydi-dilə şəhbazi-nigahın süzülünjə.
Ol qönçeyi-şüküftə olur gül kibi xəndan,
Şəbnəm kibi əşki-dili-şeyda tökülünjə.
Hər tari birər mar olur gənji-hüsndə.
Rüxsarinə zülfi-siyahın şanə bulunjə.
Jan vermək isə qəsdin əgər eşq ilə, Fitnət,
Xaki-dəri-dildardən ayrılma ölünjə.

Fitnətin qardaşı Şərif Əfəndi Şeyxulislamın da zövqlə şer yazmaq məharəti vardı və türkjə yaxşı şerlər yazırdı. Bu iki farsja beyt onun təbindəndir:

Tərjüməsi

Sən əgər taleləri öyrənməkdə qiymət qoyan olsan da
Hökmləri dürüst bilmirsən, həqq aləmdir.
Sən münəjjim olsan da, sözlərin yalandır,
Qeyb aləminin filosofu Allahdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## FİTNƏT XANIM

[S. 30-31] Fitnət xanım da məşhur osmanlı şairlərindəndir, mərhum Əhməd paşanın, Trabzon valisinin qızıdır. Təvəllüd tarixi h.1258-ji ilin şəvval ayının 23-nə təsadüf edir. 28 noyabr 1842-ji il/. .1261-ji /m.1845/ ildən İstanbulda yaşamış, onun tərbiyəsinə çox səy göstərilmiş, bu səy və özünün qabiliyyəti onun kamilləşməsində özünü göstərmişdir. Hafiz Əfəndidən Qurani-Kərim öyrənmiş, xajə Lətif Əfəndidən ərəb və fars dillərinin əsasını öyrənmiş, xajə Şakir Əfəndi ona Hafizin "Divan"ını öyrətmiş, Osman Əfəndi Ərzənətərrumidən süls xəttini öyrənərək, şəhadətnamə almışdır. Əli Şükri Əfəndi də ona rüqə xəttini öyrətmiş, beləliklə o, inşanın əsaslarını mənimsəmişdir. Kiçik yaşlarından onu ərə vermişlər və o, təhsil alan rəfiqələrindən ayrı düşmüş oldu. Bununla belə onun kimi savad təhsil etmiş anası onunla məşğul olmuş və təhsilini təkmilləşdirməkdə davam etmişdir. O, birinçi əri öldükdən sonra dənizçilik vəzarətində münşiyi-əvvəl olan Məhəmməd bəylə ailə həyatı qurmuşdur. Nəzm və nəsrlə xeyli bədii əsərlər yazaraq, yadigar qoymuşdur. Bu əsərlərindən məlum olur ki, burada hikmətli və fəlsəfi məsələlər işlənmiş, tədqiq olunmuşdur. Aşağıdakı şerlər onundur:

Sərnigün etdi fələk asayişim peymanəsin,
Çünki dilşad eyləməz nəşv eyləyən məstanəsin.
Əzmi-suyi-meykədə[39] əl vermədi, çəkdim ayaq,
Başına çalsın həman ol bivəfa dəmxanəsin.
Eyşü nuşü söhbəti dəyməz anın heç bir pula
Neylərəm zilli-sərab asa şu mehmanxanəsin.
Jürə[40] nuş badəyi-əltafi olmaqdır məhəl



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəndəgan tək etməsinmi məjlisi-şahanəsin.
Vadiyi-əlami-qəmdə qaldım, ey saqiyi-dəhr,
Məhrəm etdi yar zira məjlisə biganəsin.
Şəmi-suzanə hajət qalmadı, çünki betər,
Atəşi-jövründə yaxdı aqibət pərvanəsin.
Pərtov jami-jəmi –dara ilə fəxr eyləsin,
Bəd əz an yad etməsin Fitnət kibi divanəsin.

## GÖVHƏR BƏYİM AZƏRBAYJANİ

[S. 47] Məşhur ədibə, şirinsüxən şairə olmuşdur. Bu beytlər onun duşunjələrinin nətijəsidir:

Tərjüməsi

Ənbər saçan tellərimi küləklərə verərsəm,
Səhradakı ahuları öz toruma salaram.
Yolum düşsə kəlisaya tərsa qızlarını da,
Öz dinindən çəkindirib öz yoluma salaram.
Bir balaja qəmzəm ilə jan verərəm aləmə,
Xəbər edin Musanı da-möjüzəmlə mən varam.
(Tərjümə N.Rəfibəylinindir).

Əliəkbər Dehxuda “Lüğətnamə”də “Xeyrati-hesan”a isnad edərək bu məlumatı vermiş və şairənin yaşadığı əsrin qeyri-məlum olduğunu bildirmişdir. Qeyd etmək lazımdır ki, Əlyazmalar İnstitutunda Bu şer B-1969 şifrəli jüngdə “ƏNQA” təxəllüslü Ağabəyim Ağanın şeri kimi verilmişdir.

## GÖVHƏR XAN SULTAN



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 47] Osmanlı sultanı II Sultan Səlimin qızıdır. Müşarileyh Sultan onu Piyalə paşa Fateh Saqqıza ərə vermişdir.

## GÖVHƏR XANIM

[S. 47] Fətəli şah Xaqanın saray xanımlarından, Allahyar xan Asəfüddövlənin bajısı olub ad-san və etiram sahibi idi.

## HAJI GÖVHƏR XANIM

[S. 47] Hajı Gövhər xanım bu ədəbi dövlətin kübar ailələrindən Musa xan Qajarın qızı olub, Fətəli şahın qızı şahzadə Hajı Teyğun xanımın bətnində dünyaya gəlmişdir. Savadlı və kamallı olub, təbiətən xeyirxah və gözəl xasiyyətlidir. Nüjum elmini yaxşı bilir, çox yaxşı şerlər yazır, Həzrət peyğəmbər/ə/ tərifinə bu şeri demişdir:

Tərjüməsi

Peyğəmbər Adəm övladının əşrəfi olduğundan,
Onun minbərinin hər pilləsi əzəmətlidir.
Rəsulun günahı bağışlaması kainatın fəxridir
O, həqqın yaratdığıdır, aləmi yaradanın xəlq olunmuşudur.

VƏ YAXUD:

Tərjüməsi

Ey Səba! Sən müşk ətrini o həlqələrdən ahəstə qopart
Ki, müşk ətri o zülflərə giriftar olmuşdur.

VƏ YAXUD:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tərjüməsi

Ey Xaliqi-Xəlq! Sən ki, rəhmlisən
Sənin yanında günahkar olmaqdan başqa bir işim yoxdur.
Sənin və mənim xasiyyətimizdən bizə naz edirlər,
Sənin lütfündən qeyri köməyim yoxdur.

## HAJI QADIN

[S. 94] Mərhum Sultan Bayazid xanın vəzirlərindən olan İsgəndər paşanın qızıdır. Hajı Mehri şah xanım adı ilə tanınırdı. "Hədiqətül-jəvame" müəllifi deyir: "Qoja Mustafa paşanın qəbrinin yaxınlığında jame və çadir, Səmatiyyədə məhəlləsi vardır". Amma "Məşahirün-nisa" müəllifi Məhəmməd Zehni əfəndi onun dediklərini rədd edərək yazır ki, bizim iki yüz il bundan əvvəl əba və əjdadımız Hajı Xatun məhəllsində sakin olmuşdur. İndi də biz həmin məhəllədə yaşayırıq və bilirik ki, Hajı Xatun müşarileyhanın bu məhəllədə hamamdan başqa bir şey yoxdur. Jameyi-şərif mərhum jərabül-elm Xızır bəyindir ki, bir zaman İstanbulun birinji qazisi olmuşdur. Məhəllə də onun adı ilə adlanır. Hajı Xatun Xızır bəy jamesinin qarşısında iki hamam tikdirmiş, jameyi-şərif və məhəllə onun adı ilə adlandırılmışdır. Hajı Xatunun qəbri Qoja Mustafa paşanın qəbrinin yanında, jamenin yaxınlığındadır. Xızır bəyin məqbərəsi Zirəkə yaxın Qaragöz baxçasının ətrafındadır.

## HƏBİBƏ XANIM



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 98] İstanbulun məşhur ədibələrindən olub, Hersekli Əli paşanın qızıdır. “Məşahirün-nisa” kitabının müəllifi Məhəmməd Zehni əfəndi deyir: “Mən və bu qadın hər ikimiz 1262-ji /1846/ ildə anadan olmuşuq və müşarileyha Məhəmməd əfəndi Katibə nigahlanıb. Bu qəzəl onundur:”

Jigərdə tiği-qəmzən zəxmi varkən atma peykanın,
Yetər, ey qaşı yay artıq, yetər dirətmə mücganın.
Nigahi-məstinə, jana ki, şayan gördün əğyarı,
Yenə nou yarələr açdı dərunə tiği-hijranın.
O qafil bixəbər nadan əduyə həmdəm olmuşsin,
Vüsalındın bizi dur eylədin, var olsun ehsanın.
Ümidi-mərhəmət qılmaq əbəsdir səndən,ey kafər,
Səni bidin demişlərdi, əzəldən yoxdur imanın.
Həbibə, bidəva dərddən xilas olmaq da müşküldür,
Ümid etməz əsiri-dərd olanlar qeyri dərmanın.

## HƏLİMƏBƏYİ AĞA

[S. 105] Həsən bəy Türkman Ağqoyunlunun qızı və Sultan Heydərin zövjəsi, I Şah İsmayıl Səfəvinin anasıdır. Şah İsmayıl Səfəvi seşənbə günü rəjəb ayının 25-də hijri 892-ji /17 iyul 1487/ ildə anadan olmuşdur. Mirzə Jahanşahın hökmü ilə Sultan Heydərin atası Sultan Jüneyd Ərdəbildən Diyarbəkrə sürgün edildi. Diyarbəkirin fərmanfəması Həsən bəy Xədijə adlı qızınıSultan Jüneydə ərə verdi. Deyirlər bu Xədijə Sultan Heydərin anasıdır və bəziləri deyirlər ki, Xədijə bəyim Həsən bəyin bajısıdır. Digərlərinin əqidəsinə görə Həsən bəy bajısı Xədijə bəyimi Sultan Jüneydə və qızı Həliməbəyi Ağanı isə Sultan Heydərə ərə vermişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HƏLİMƏ BİNT MƏHƏMMƏDSADIQ

[S. 162-163] İstanbulun məşhur adamlarındandır. "Təzkirətül-xəttateyn" də onun haqqında yazmışdır. Atası Xətibzadə Yəhya paşanın vəziri olmuşdur. Həlimə təhsil almış, Seyid Məhəmməd Helmidən xəttatlıq öyrənmiş, ona mükəmməl yiyələnmək üçün səy etmişdir. Hijri 1169-ju / 1755 / ildə artıq kamil xəttat kimi rəsmən tanınmışdır. Məhəmməd Rasim əfəndi onun haqqında zəmanəsinin məşhur xəttatı kimi bəhs etmiş, mərhum Müstəqimzadə təzkirəsində /ərəb dilindədir- T.H./ geniş söhbət açmışdır.

## HƏMİDƏBANU BƏYİM

[S. 108] Hindistan sultanı Nəsirəddin Məhəmməd Humayun şah ibn Zəhirəddin ibn Məhəmməd Babur şahın zövjəsidir. Məhəmməd Humayunun Hajı Bəyim adlı digər bir nigahlı qadını olmuşdur hər iki qadın hüsn və jamalda misilsiz idilər. Məhəmməd Humayun vəfat etdikdən sonra /1555-ji il/ Hajı Bəyim oğlu Jəlaləddin Məhəmməd Əkbər şahın yardımı ilə ərinə ehtiram nişanəsi olaraq dördguşəli bir saray bina etdi. Bu binanın tikintisinə 1.500.000 rupi ki, bu da 325.000 tümənə bərabərdir, pul xərjlənmişdir. Dehli şəhərində bu torpaq indi də "Məqbəreyi-hümayuni-məşhur" kimi tanınır. Dehli sultanları və onların ailələrinin dəfn mərasimi burada ijra olunmuşdur. Hajı Bəyim və Həmidəbanu bəyim özləri də bu yerdə torpağa tapşırılmışlar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HƏYAT XANIM

[S. 109] Səfəvi padşahı I Şah İsmayılın zövjəsi idi. Şairlik təbi var idi. Bu padşahın digər bir nigahlı qadını olmuşdur ki, adı Jahan xanım idi. Onun da şairliyi var idi. Deyirlər ki, bir gün Jahan xanım Şah İsmayıla bu şeri ərz eləmişdir:

Tərjüməsi

Sən jahan padşahısan, jahanı əldən vermə,
Jahanın padşahına Jahan gərəkdir.
Həyat xanım bunu eşidən kimi bu beyti ərz elədi:

Tərjüməsi

Jahan həsrətini tərk elə, ta ki həyatdan müstəfid olasan,
Jahanın dərdini çəkən həyatdan nə vəjhlə faydalanar?
Bəziləri deyirlər ki, Jahan bu misranı demişdir:
Sən jahan padşahısan, sənə Jahan lazımdır.
Həyat deyir:
Həyat olmazsa, Jahan nəyə lazımdır?

Çoxları bu şer deyişməsini Jahangir padşah ibn Jəlaləddin Məhəmməd Əkbər padşahın zövjələri olan Həyatünnisa Bəyim və Nurjahan təxəllüslü Mehrünnisə Bəyimə aid edirlər. Bu fikirlər aşağıda açıqlanajaq.

## HƏYATÜNNİSA BƏYİM



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 109-110] Jahangir padşah ibn Jəlaləddin Məhəmməd Əkbər padşahın zövjəsidir. Bu qadın sahibi-təb və xoş söhbət olmuşdur ki, onun adı Mehrünnisə Bəyim idi. O, Nurjahan təxəllüsü ilə tanınırdı və bu iki qadının hər ikisi istedadlı olduqları üçün onları bir-biri ilə qarışdırırdılar. Deyilənlərə görə müəlliflərdən bəzisi Jahangir padşahın beş zövjəsi olduğunu yazır və onların haqqında yazmaq fikrimiz olmadağandan bildiririk ki, Jahangir şah javanlığında öz atasının hakimiyyəti zamanı Nurjahan Bəyimlə tanış olan zaman əlində iki göyərçin saxlayan şahzadə onları Nurjahana verib, özü gül dərməklə məşğul olur. Təsadüfən göyərçinlərdən biri onun əlindən uçur, şahzadə qayıdıb, bunu gördükdə ondan quşlardan birinin nejə olduğunu soruşur. Nurjahan deyir ki, uçdu. Şahzadə: - Nejə uçdu? – deyə soruşduqda Nurjahan o biri əlində olan quşu buraxıb, nejə uçduğunu göstərdi. Bu hərəkət Jahangir şaha xoş təsir bağışladı və Nurjahana məftun oldu. Bu qadın əvvəllər Əliqulu xan adlı birinin zövjəsi idi. Sonra Jahangir şaha ərə getdi.

## HÜBBİ QADIN

[S. 95-96] İstanbullu şairədir, ədəbiyyatda qabildir. Sultan Səlim xan Saninin nədiməsi olmuşdur. Onun adı Aişə olduğu üçün "əyn" hərfindən bəhs olunajaq.

## XANZADƏ

[S. 163] Mir Yadigar Təbrizinin qızı olub, gözəl surəti və şairlik qabiliyyəti var idi. Bu beyt onun şerlərindəndir:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tərjüməsi

Bir gejə bizə mehman olmaq istərdin,ya yox,
Bu natəvanın könlünə həmdəm olmaq istərdin ya yox?

## XATUN

[S. 110-111] Böyük qadınlara Xatun deyirlər. Amma Misir padşahı Sultan Səlahəddin Əyyubinin sülalsindən və nəslindən olan Al-Əyyubun xənadanından iki qadının adı olmuşdur ki, onlara Xatun deyirdilər. Bunlardan biri Sultan Məlik Adil Seyfəddin Əbu Bəkr ibn Eyyubun anası, digəri isə Məlik Əşrəf Musanın /Məlik Adil Seyfəddinin oğlu/ qızıdır. Hər ikisi çox dövlətli olmuşlar və Dəməşqi-Şamdakı “Mədrəseyi-Xatuniyyə” / xanımlar mədrəsəsi / təsis edən Xatun Məlik Əşrəfin qızıdır. Sultan Məlik Adilin anası hijri 593-ji /1197/ ildə vəfat etmişdir. Məlike Əşrəfin qızı Xatun isə hijri 694-jü / 1294/95 / ildə dünyasını dəyişmişdir. Amma Fındıqlıda /İstanbul/ vaqe olan “Məsjidi-Xatuniyyə” Əhməd paşa Ərəbin zövjəsi Pərizad xatunun binalarındandır ki, bu barədə “hədiqətül-jəvame” də yazılmışdır. Əhməd Paşa Bəhriyyə əmirlərindən olmuşdur.

## XAZƏNÜDDÖVLƏ VƏ YA GÜLBƏDƏN BAJI

[S. 111] Gülbədən bajı adlandırılan Xazənüddövlə /dövlətin xəzinədarı/ Fətəli şah Qajarın möhtərəm xanımlarındandır. O, əvvəljə Fətəli şahın anasının xidmətçilərindən olmuşdur. O, zaman ki, şahın anası rövzeyi-rizvana /behişt/ üz tutdu, həzrət Xaqan hərəmxana qadınlarına buyurdu ki, onlar özlərindən bir nəfəri seçsinlər ki, bütün hərəmxananı idarə etsin və o şəxs



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bütün hərəmxanada sahibi-ixtiyar olsun. Gülbədən bajı seçildi və xəzinədar vəzifəsi ona verildi. Bu şeri həmin məqamda demişdir:

Tərjüməsi

İran məmləkətində mötəbər olan
Jahan şahının xəzinədarıdır.

Xaqan Fətəli şahın göstərişi ilə Gülbədən bajıya Xazənüddövlə ləqəbi verilmiş və o, iki şahzadə dünyaya gətirmişdir. Xaqanın hərəmxansında külli-ixtiyar Xazənüddövlənin əlində olmuşdur.

## XƏDİJƏ XANIM

[S. 164] Vəkil adı ilə məşhur olan Kərim xan Zəndin zövjəsi idi və şəhid şah Ağaməhəmməd şah Qajarın bibisi kimi tanınırdı. Bəziləri onu şəhid şahın xalası bilirdilər, hər halda bu qadını tarixdə böyük qajarlar sülaləsinin nümayəndəsi kimi tanımağa əsas vardır.

Məlumdur ki, Kərim xan Zənd uzun illər ağjiyər xəstəliyinə düçar olmuşdu. Hijri 1193-jü ilin səfər ayında /1779,fevral/ bu mərəz şiddətlənən zaman Xədijə xanım Kərim xanın sarayında möhtərəm qadın idi və o, şəhid şaha xəbər göndərdi ki, vəkilin xəstəliyi şiddətlənmişdir və çox güman ki, öləjək. Mültəfit və hazır olsun. Mərhum şah bu zaman Şirazdan kənara çıxaraq, ova getmişdi. O, səfər aynın 13-də /1779, 3 mart/ şəhərə qayıdarkən, şəhər darvazalarını bağlı gördükdə başa düşdü ki, Kərim xan vəfat etmişdir. Bəziləri deyirlər ki, Xədijə xanım şəhid şahı Ağaməhəmməd şah Qajar – T.H./ Kərim xanın öldüyü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

barədə əvvəljədən xəbərdar etmişdi və Ağaməhəmməd şah iki atlı ilə Tehrana çatıb, hakimiyyəti ələ keçirmişdi.

## XƏDİJEYİ-BİNTÜL-MƏLİK

[S. 164-165] Misirdə hakimiyyətdə olmuş türk sultanlarından Məliki-Əşrəf Şaban bin Hüseynin qızıdır. Qasım əl-Beştəkinin zövjəsi olmuşdur. İbn Həjər özünün "Ənba"sında ondan bəhs edərək yazır ki, bu qadın Məlik Əşrəfin bütün qız övladlarından sonra vəfat etmişdir və çox ağıllı, bilikli, hüsndə seçilən, işgüzarlığı ilə şöhrət tapmış xatun idi.

Xədijə bintül Məlik h.826-jı /1423/ ildə vəfat etmişdir.

## XƏDİJEYİ-SƏLJUQİYYƏ

[S. 112] Səljuqilərdən Toğrul bəy Rüknüddövlənin qardaşı oğlu Davud ibn Mikayıl ibn Səljuqun qızıdır. Bu qadın Arslan xatun adı ilə məşhurdur. Hijri 448-ji (1057) ildə Abbasi xəliflərindən Qaim Biəmrullaha nigah edilmişdir. Ədib, fəsih, Abbasilər arasında fəzilətləri ilə şöhrətli olan bir şəxsin belə bir jahilə ərə verilməsi hamının təəjjübünə səbəb oldu və böyük bir hadisə kimi dillərdə söylənildi.

## İFFƏT

[S. 185] Fətəli şah Xaqanın qızıdır. Fars əyalətinin hakimi Hüseynəli mirzənin, Xorasan valisi Həsənəli Mirzənin doğma bajısıdır. Nüjum və heyət elmlərindən, müqəddəmati-ərəbidən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

/qədim ərəb elmlərindən-T.H./ bəhrələnmiş, nəstəliq və şikəstə xətləri ilə aydın və dürüst yazırdı. Şerlər deyirdi. Mövləni "Məsnəvi"sinin çox hissəsini bilirdi, bəzən özü məsnəvi tərzində beytlər nəzmə çəkirdi. Aşağıda ondan bir neçə misra veririk:

Tərjüməsi

Yenidən xatirimdən keçir ki,
Onun haqqında yeni bir hədis bəzəyim.
Məhəbbət şəhərində yeni aşiqlər var,
Dostluq kitabımda nizam-intizam.
Eşqimdən qeyri bəyanım yox
Ürəyi eşqdən başqa heç nə doydurmur.
Susuzlar üçün sudan ləzzətli bir şey yox,
Xəstələr üçün yuxudan qeyri rahatlıq yox.
Dəryada boğulan sahilə jan atar.
Qışda hər kəs bahar arzular,
Jahanda hər kəsin baharı vardır,
Aşiqlərin baharı isə eşqdir.

## İFFƏT, YA İFFƏTİ

[S. 185-186] Bəziləri bu qadının Səmərqənd əhli olduğunu yazırlar, bəziləri də onun əsfərainli[35] olduğunu deyirlər. Hər halda onun həddindən artıq dərəjədə tərkidünya, namuslu, inamlı, ibadətə sadiq bir qadın olduğunu deyirlər. Bu iki bənd şer onun düşünjələrindəndir:

Tərjüməsi

Sərv öz qaməti ilə suda görünərək
Yarın qaməti ilə bəhsə girdi.
Dün gejə saqinin qəflət meyindən məst idim,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mənə iki-üç jam mey verib huşyar etdi.

## İFFƏTÜSSƏLTƏNƏ

[S. 185] Əlahəzrət möhtərəm şahənşahi-jəmjah xosrovi-sahibqıran Nəsrəddin şahın xanımlarındandır və şahzadə Zilli Sultan Məsud mirzənin anasıdır. Şöhrətinin sədası Şərq və Qərb aləminə çatmışdır. Bu şəxs İffətüssəltənənin bətnində dünyaya gəlmişdir.

## İSLAM AĞA

[S. 20] Əmir Xizir Meysurinin qızı, Əmir Hüseynin zövjəsidir. Əmir Hüseyn öldürüldükdən sonra Əmir Teymur onu özünə arvad etmişdir.

## İSMƏT

[S. 183-184] Mərhum Xaqan Fətəli şah Qajarın qızı, mərhum Dövlət şah kimi məşhur olan şahzadə Məhəmməd Əlimirzənin doğma bajısıdır. O, nəsx xətti ilə yazmaqda mahir idi, bu xətlə köçürdüyü quran son dərəjə gözəldir. Bəzən gözəl təb ilə şerlər yazırdı, o jümlədən şahzadələrdən birinin vəfatı ilə əlaqədar yazdığı mərsiyə çox təsirlidir və aşağıda dərj edilir:

Tərjüməsi

Sən nə etdin, ey zülümkar göylər,
Etiraf et ki, bir an kinini azaltmırsan,
Zülmdən qeyri heç nə vermirsən,
Sənin kindən başqa heç nəyin yoxdur.
İstəmirsən ki, ay bir ay fırlansın,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İstəmirsən ki günəş işıq saçsın.
Xəstə ürəklərə verdiyin həsrət yetər,
Kədərli ürəklərə verdiyin qəm yetər.
Mənim hıçqırıqlarımda sən əbədisən,
Sənin ruhun mənim həyatım kimi fəryad edəjək.

## İSMƏT BƏYİM

[s. 184] Sahibi-təbin /Nəsrəddin şahın- T.H./ zövjələrindəndir. Mərhum şahzadə Seyfəlmüluk mirzənin qızıdır. Bu rübai onundur:

Tərjüməsi

Bahar buludu tək daima ağlaram,
Asiman kimi həmişə sərgərdanam.
Kimə vəfalı oldum, ondan jəfa gördüm,
Öz bəxtimə, öz taleyimə heyranam.

## İSMƏT, YA İSMƏT

[S. 184] Səmərqənd qazısının qızı olub, şer yazmaqda yaxşı təbi var idi. Təzkirələrini əksəriyyətində onun haqqında danışılır. Bu bir beyt onun şəffaf şerlərindən nümunədir:

Tərjüməsi

Şayəd eşqlə rusvay olan insanlara həyat qəm gətirər,
Aşiqin rusvayçılığı, ölümü həm aləmdir.

## İSMƏTİ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 184] İsməti də qadın şairələrdəndir ki,aşağıdakı beyt onun dərin zəkaya malik olduğunu göstərir:

Tərjüməsi

Şikəstlərdən Kəbəyə getmək tələbi müşküldür,
Onun əli çatan Kəbə, ürəyində olan Kəbədir.

## QADINJIQ ANA

[S.] "Şəqayiq" kitabında yazılmışdır ki Qadınjıq Ana Osmanlı dövlətinin sayılan, seçilən qadınlarından biri olmuşdur. O xeyirxah və vilayətdə tanınmış varlı bir xatun olmuşdur.

## QAZİYƏ XATUN

[S. 194] Əyyubiyyə[37] məliklərindən olan Məhəmməd ibn Məlik Adilin qızıdır. Müşarileyhə Məlik Müzəffər Mahmudun zövjəsidir. Məlik Müzəffər Hümada dövrün ağıllı hakimlərindən olmuşdur. Onun zövjəsindən üç oğlan və üç qız dünyaya gəlmişdir. Bu üç oğuldan Məhəmməd adlı birisi Hüma və Ərsin məlikini, atasını qətlə yetirib, özü Məlik Mənsur /qalib deməkdir-T.H./ ləqəbini almışdı və ilk illərdə yaşı az olduğundan onun yerinə hökuməti anası Qaziyə xatun idarə etmişdir. Qaziyə xatunun vəfatı 656-jı ilin zülqədə ayına təsadüf edir /Miladi 1258-ji il, oktyabr/.

## QƏMƏR

[S. 42] Qəmər Qajarlar sülaləsinə mənsub olan qadınlardan biridir. O, mərhum şahzadə Əli şah Zilli Sultanın xidmətində ol-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

muşdur. Yazdığı şerlər çox lətafətli və mənalı idi. Bu iki beyt onun şerlərindəndir:

Tərjüməsi

Bilmirəm nə üçün rəqiblərin yanında
Sevilən aşiqlərdən söz soruşurlar.

Tərjüməsi

Sən yaşayan küçənin başında çoxları gözləyir,
Yəqin ki, lütfünün zərrəsi evdən küçəyə çıxır.

## QÜRRƏTÜLEYN

[S. 38] Qürrətüleyn /əsl adı Tahirədir -T.H./ Babi məzhəbinə mənsub idi. 30-40 il bundan əvvəl şer yazmağı və gözəl nitq qabiliyyəti, ağlı onu məşhurlaşdırmışdı.

## LALƏ XATUN

[S. 47-48] "Xeyrati-hesan"ın I jildində bu qadın Padşah xatun adı ilə verilmişdir /Jild I, s.69/. Əsl adı isə Səfvətəddin Padşah xatundur. Lalə xatun onun şerlərində təxəllüsüdür.

Hökmdarlar nəslindən olan bu qadın əzəmtli və təmkinli idi və bir neçə il Kirman hakimi olmuşdur. Elm və hünər adamları onun üçün əziz və möhtərəm şəxsiyyətlər idi və onları himayə edirdi. Rəiyyətlə yaxşı rəftar edirdi. Yüksək düşünjələri, isməti, ağlı, aydın ifadə tərzi onun şerlərində öz əksini tapmışdır. Onun şerlər divanı 5000 beytdən ibarətdir. Şahzadə Mahmud Mirzə "Noqle məjlis" təzkirəsində buyurur: "Bilmirəm "Lalə xatun" onun təxəlüsüdür, yaxud başqasınındır. Hər halda aşağıdakı beytlər onun düşünjələrindən nümunədir:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tərjüməsi

Mən o qadınam ki, bütün işlərim yaxşılıqdır,
Mənim çadramın altında qadir taj vardır.
Mənim dayağım olan qüsursuzluq pərdəsi arxasına
Çətin ki, sabah küləyinin dağıtdıqları kejə.
Yolunu azanlardan öz bədəninin gözəlliyini qorumaq üçün,
Mən onu çadra ilə örtməyi əxlaqlı iş hesab edirəm,
Hər qadın iki arşınlıq örtüklə padşah olmaz,
Hər papaq qoyulan baş taja layiq deyil.

Bütün dünyanın hökmranlığını əlimə alsam da
Mən Allahın altında yaşayan kənizəm!

VƏ YAXUD:

Tərjüməsi

Ey qamətli Sərvim! Əgər mən meydən tövbə etsəm də
Sən özün mənə mey verməkdən tövbə etməyəjəksən.

Bu rübai də onundur:

Tərjüməsi

Dodaqların üçün darıxdığımdan gözlərim yaşla dolmuşdur
Əllərim sənin çiyninə toxunan kimi
Mən sənin qulaqlarında mirvari sırğalar gördüm
Onlar mənim göz yaşlarım deyil ki?

## LEYLİ

[S. 62] İstanbulun ədibələrindən birinin də adı Leyli xanımdır. Müşarileyha mərhum Fuad paşanın yaxın adamlarından biri ol-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

muşdur. Fətin "Təzkirə"sində yazıldığı kimi Leyli Murəlizadə həmin Əfəndinin qızıdır və 1264-jü /1847/48/ ildə vəfat etmişdir. Şerlər yazmış və tərtib olunmuş divanı vardır.Bu şeri məşhurdur:

İnjitmə sən əhbabını, injinmiyə səndən,
Bu aləmi-fanidə zərafət budur iştə.
Və bu beytlər də onun təbindəndir:
Qıl məjlisi amadə, nə dirlərsə disünlər,
İç dilbər ilə badə, nə dirlərsə disünlər.
Aləmdə nədir fərqi bana mədh ilə zəmmin[41]
Sağ olsun əhibba[42] da, nə dirlərsə disünlər.
İç badəyi gülşəndə, nə dirlərsə disünlər,
Aləmdə sən əglən də, nə dirlərsə disünlər.

Deyirlər ki, Leyli mum satanın şagirdinə məhəbbət bəsləyirmiş və çox tez-tez mum satılan dükanın qapısına gedib alver edirdi. Bu halı sezənlərdən bir nəfər aşağıdakı misranı qoşub, həmin dükan sahibinə verir və deyir ki, nə vaxt Leyli sənin yanına gəlsə, onun üçün oxu:

Şəmi-ruxuma diqqət ilə baxma, yanarsan,

Leyli oğlanın yanına gələndə oğlan bu misranı ona oxumuş, Leyli də bədahətən bu misra ilə ona javab vermişdir:

Xəttin[43] gəlijək, sən də məni mumla ararsan,

## LEYLİ XANIM

[S. 62] Mərhum İsmayıl paşanın qızıdır. Zəmanəsinin nadir şairlərindən olmuşdur. Bu qəzəl onun seçilmiş şerlərindəndir:

Əksi-hüsni-yar əşki-çeşmi bifərrdən[44] keçər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fələk kövhərdir o, güya bəhri-əhmərdən keçər.
Yektən olmaq istəyən ol gülbədənlə, ey könül,
Pirəhənvəş[45] sinəsin çak eyləyib, sərdən keçər.
Bax bu löbətgahi[46] dəhrin ruzü şəb mehrü məhi,
İki tifli-nazənindir, sanki çənbərdən[47] keçər.
Qamətin seyr eyləyən tubaya eylərmi neqah,
Ləli-janbəxşin əmən, əlbəttə, gövsərdən keçər.
Sanma təsir eyləməz, Leyli, o səngin tinətə,[48]
Navəki[49]-ahi-dərun poladu mərmərdən keçər.

Haqqında zikr olunan Müşarileyha fransız və rum dillərində də danışıb-yazan olmuşdur.

Leyli adında yetmiş qadın tanınmışdır.

## MAHÇİÇƏK BƏYİM

[S. 71] Hümayun şahın /Böyük moğollar sülaləsinin hökmdarı /1508-1555/-T.H./ zövjələrindəndir.

Hijri 9-ju yüzilliyin ortalarında /XVI əsr/ Qəznə, Kabil və Qəndəharda müstəqil hökmdar olmuş Mirzə Məhəmməd Həkim Əbul Məfaxirin anasıdır. Onun İqbalı və nüfuzu müqabilində "Hümayunnamə" tarixi kitabı yazılıb, ona həsr edilmişdir. Hümayun şah Sultan Əbu Səid Bahadur xanın övladlarındandır ki, Hindistanda hökmdar olmuşdur. Onun anası Xorasan əyanlarından birisinin qızı olub, adı Mahim Bəyim idi.

## MAHİ-MÜLK XATUN

[S. 72] Paytaxtı Mərv olan məşhur sultanlardan Sultan Sənjər Səljuqinin qızıdır. O, vəfat etdikdə Sultan Sənjər ona mərsiyə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

demək üçün Əməq Buxari adlı buxaralı şairi xüsusi olaraq Buxaradan Xorasana gətirdi və dedi ki, Mahi-mülk xatun üçün mərsiyə oxusun. Deyirlər ki, o zaman Əməq çox qoja və zəif idi, mərsiyə oxumağa təbi gəlmədi. O üzr istədi və yalnız qısa olaraq bu iki beyti dedi:

Tərjüməsi

Onda ki, çiçəklikdə gül bol idi,
O açılmış gül getdi və torpaqda qeyb oldu.
Onda ki, ağajın budağı buluddan nəm çəkirdi,
O tazə çiçəkliyin nərgizi susuz qaldı.

Və bu iki beytdən aydın olur ki, Mahi-Mülk Xatun bahar fəslində həyata "əlvida" demişdir.

## MAHPEYKƏR SULTAN

[S. 67-69] Əvvəlinji Osmanlı Sultanı Sultan Əhməd xanın zövjələrindən biri olub, Küsəm Validə adı ilə məşhur idi. O, IV Sultan Murad xanın və Sultan İbrahimin anasıdır və Sultan Osman xani-sani isə onların ata bir, ana ayrı böyük qardaşlarıdır, MahFiruz xatundan olandır. MahFiruz xatun Sultan Əhməd xanın böyük zövjəsi sayılırdı.

Mahpeykər Sultan bu iki şahzadənin və öz nəvəsi IV Sultan Məhəmməd xanın hakimiyyətləri dövründə yaşamışdır. O, dövlət işlərində böyük nüfuza malik şöhrətli bir şəxsiyyət olmuşdur.

Mahpeykər Sultanın jah-jəlalı, dövləti həddindən çox olmuşdur və dillərdə gəzmişdir. O çox uzun ömür sürmüş, nətijədə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1601-ji ilin ramazan ayında vəfat etmişdir. Sultan Əhməd xanın məqbərəsində dəfn olunmuşdur.

Mahpeykər xanım xeyrat və ehsan verməkdə məşhur olmuşdur, bu işdə çox həvəskar idi. O jümlədən onun tikililərindən olan xeyriyyə binalarından məsjidlər və başqa tikililər yadigar qalmışdır. Mübarək şəhərlərə iki yüz nəfərdən artıq qadın və kişini göndərmiş və onlar şərəfli seyid adını almışlar.

Mahpeykər Sultan həmin adamlara öz hesabından aylıq maaş təyin etmiş. O, hər il iki nəfəri Böyük Səqqa və Kiçik Səqqa[50] adı ilə həjj ziyarətinə göndərmiş və onlar vasitəsilə həjjə gedən zəvvarlara su və şərbət verirdi. Yenə hər ilin rəjəb ayında paltarlarını dəyişərək zindanxanaya gedir, din yolunda həbs olunan dustaqları müəyyənləşdirərək, onların işlərinə özü baxır və özü azad edirdi. Eyni zamanda jüzi jinayət etmiş dustaqların yerdə qalan müddətlərini onlara bağışlayaraq, azad etdirirdi. Səxavətini əsirgəmədən ehtiyajı olanların köməyinə şəxsən özü yetir, kasıb qızların jehizini verirdi. Qurban bayramı zamanı hökmdar tərəfindən xidmətçilər arasında bölmək üçün verilən qoyunlar onun fədakarjasına ayırdığı qurbanlar olurdu. İstanbulda yaxşı bir jame və Əsgidarda olan “Hənbəli jamesi” onun tikdirdiyi binadır. “Hənbəli Xeyriyyə jamesi” 1050-ji ildə /1640/41/ tamamlanmışdır. Mahpeykər Sultan həmçinin bir məktəb, bir səqqaxana, bir darülhədis, iki hamam dəxi tikdirmişdir. Əlavə olaraq İstanbulda İran əhalisinin yaşadığı böyük karvansara da onun işlərindəndir ki, onu “Xan Validə” adı ilə tanıyırlar. Bu karvansarada və Qara dəniz aşırımında və Anadoluda da üç məsjid bina etmişdir. O, xeyir əhli olduğu üçün xeyirxahlıqla xatırlanır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MAHTABAN XANIM

[S. 69-71] Bu şərəfli adı, onu həyatda səxavətli, xeyirxah insan kimi tanıyanlar indi də hörmətlə çəkirlər və Qəmərüssəltənə ləqəblidir. Bu ağıllı qadın ali müşarileyh Fətəli şah Xaqanın qızlarındandır. Onun anası Nuşafərin xanım Əlimurad xan Zəndin qardaşı Bədrxanın qızıdır. Tərjümeyi-halı yazan aqillər deyirlər ki, hər iki nəsil ilahinin verdiyi xüsusiyyət olaraq xeyirxahlığa, ləyaqətə malik olduğundan bu xanıma da həmin dəyərli xüsusiyyət xasdır. Bu xanımda olan mərhəmət hissləri barədə geniş yazılmış mənbədən qısa bir məlumat veririk:

Mərhumə Nuşafərin xanımın /Darülxülafənin Nuş bürjü onun şərəfinə tikilmişdir/ həzrəti-Xaqandan iki övladı olmuşdur, onlardan biri Sədri-əzəm və Sipəhsalar Hajı Mirzə Hüseyn xan Müşirüddövlənin atası mərhum Mirzə Nəbi xan Əmir-Divanın zövjəsi mərhumə İftixarüssəltənədir. O biriQəmərüssəltənə ləqəbli Mahtaban xanımdır. Xüsusi tərbiyə aldıqdan sonra elm,bilik qazanmağa çalışaraq oxuyub yazdı və biliklərə yiyələnmiş alim oldu, ləyaqət öyrəndi, huş və zəka çırağı yandırdı, İran və Avropa elmlərini öyrənməyə maraq göstərdi, hansını istədi, onu da öyrənə bildi. Burada müəllif bir beyt şer deyir:

Tərjüməsi

Kişilərdən artıq hünər sahibi oldu,
Mərdlikdə və insanlıqda çoxlarına yol göstərdi.

O, bu xüsusiyyətlərindən başqa osmanlı türkjəsində və fransız dilində maarif və fəzilətin təbliğ edilməsi sahəsində bajarıqlı olmuşdur. Bir sözlə fəhm və elm əhlidir. Onun xoş məzmunlu və rəvan şerləri vardır. Aşağıdakı üç beytini ikinçi həjj ziyarəti



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

zamanı yazmışdır və "Töhtəfül-İraqeyn"in müəllifinin yazdığına bənzəyir:

(Təjüməsi)

Nə olardı ki, mənə mərhəmətli nəzər salaydın.

Əğyarımdan gizli nəzərini hiss edəydim.

Hər yerdə xəstə Allahdan özünə şəfa dilərsə də,

Sənin eşq mərəzinin sağalmasını istəmir.

Kəbənin yolunda atəş yağsa da üz döndərmərəm

Xəlil kimi Nəmrudun odu mənim üçün gülüstandır

Mahtaban xanımın vəqf etdiyi kəndlərin və əmlakın adlarının surəti:

1.Əliabad, Keyqubad və Nəsrabad ona tabedir, 6 danq[51].

2.Hezarxuban, 6 janq.

3.Nemətabad. Darülxülafəyə tabedir, 6 danq.

4.Şəttə, Taleqan mahalındadır, 6 danq.

Bu kəndlərin məhsullarının yarısı müqəddəs məkanların işıqlandırılması üçün, yarısı isə Nəjəfi-Əşrəfdə və Kərbəlayi-Müəllada təhsil alan tələbələr üçün sərf edilirdi.

## MEHRİ XATUN



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 102-103] İstanbul ədibələrindən olub, tərjümeyi-halı II jilddə verilmiş II Sultan Məhəmməd xan əsrinin şairələrindən Zeynəb xatunun müasirlərindəndir. Onların bir-biri ilə çoxlu deyişmələri məlumdur. Xeyli yaxşı şerləri vardır. Aşağıdakı qəzəl onundur:

Xabidən açdım gözüm, nagah qaldırdım səri,
Qarşımda gördüm turur bir mahi-çöhrə dilbəri.
Taleyim səd[59] oldu, yaxud qədrə irdim, qaliba,
Kim məhəlləm içrə gördüm gejə toğmuş Müştəri.
Nur axar, gördüm jamalında, əgərçi zahirən,
Kəndisi bənzər müsəlmanə, libası kafəri.
Gözümü açıb-yumunja oldi çeşmimdən nihan,
Şöylə təşxis edirəm ki, ya mələkdir, ya pəri,
İrdi çun abi həyata, Mehri, ölməz həşrədək
Gördü çun şəbi-zülmətdə ol əyan İskəndəri.

Bu qəzəldən sonra jamaat onun İskəndər adlı şəxslə əlaqədar bir sirri və günahı olduğu barədə danışırdı. O, bunun müqabilində belə yazmışdır:

Nejə İskəndəri ləlim zülali
Suyaılətdi və su tərk turdi

Yenə o yazır:

Sən ki, gülzari-jananın güli-növrəstəsisən
Nə rəva ola ki, hər xarü xəsə yar olasın?

## MEHRMAH SULTAN

[S. 99-101] Osmanlı sultanlarından I Sultan Süleyman xanın qızı, həmin sultanın vəzirlərindən Rüstəm paşanın arvadıdır. O, zaman ki, Sultan Süleyman Rüstəm paşanı özünün qohumu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etmək şərəfinə çatdırmaq istəyirdi, /onda hələ Rüstəm Paşa Diyarbəkrin valisi idi/ böhtanjılar və iftiraçılar onun jüzam /yoluxuju və sağalmaz dəri xəstəliyi-.T./ xəstəliyinə düçar olduğunu söyləməyə başladılar. Sultan çox düşündükdən sonra həkimbaşı ilə bu barədə danışdı. Həkimbaşı dedi ki, bunu çox asanlıqla aydınlaşdırmaq olar. Bir nəfəri Rüstəm paşanın paltarını əldə etmək üçün göndərin, əyər paltarda bit olarsa, şübhəsiz ki, o söz yalan, qərəzli və həsəd ilə deyilmişdir. Sultan etibarlı həkimlərdən birini seçərək Diyarbəkirə göndərdi. O, həmin adamı Diyarbəkirə səlahiyyətli nümayəndə kimi göndərərək, fərmanla hər bir işə müdaxilə etmək ixtiyarı da verdi. Həkimə tapşırdılar ki, Diyarbəkirdə Rüstəm paşanın hamamlarına diqqətlə baxsın ki, əgər orada bit görərsə, deməli jüzam naxoşluğu yoxdur. Həkim işə başlayıb, hamamçıya əmr elədi ki, Paşanın paltarlarını ona göstərsin. Paşanın paltarlarını müayinə edib, bir bit tapdılar. Hamamçı paşanın həkimdən xəjalət çəkəjəyini düşünüb, biti gizlətməyə çalışdı. Həkim başa düşüb, tələb etdi, sonra sultanın fərmanını çıxarıb göstərdi, Rüstəm paşaya verdi, onu heyrətləndirdi və sevindirdi. Həkim Rüstəm paşa tərəfindən qiymətləndirildi. Bu hadisə ilə əlaqədar bir şair belə demişdir:

Olijəq bir kişinin bəxti qəvi, taleyi yar,
Kəhləsi dəxi məhəlində anın işə irar.

Xülasə, Sultan Süleymanın Mehrmah Sultandan özgə qızı yox idi. O, çox ağıllı, bəsirətli və xeyriyyəçi olub, atasının ən sevimli övladı idi. Ədirnə Qapısı və Əskidar məsjidi onun binalarındandır. II Sultan Mahmud xan da öz qızını bu adla adlandırmışdır və Səid paşaya (Bursalı)  ərə vermişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MƏAL XATUN

[S. 66-67] I Sultan Osman Qazi dövrünün məşhur və zəngin şəxslərindən olan Şeyx Ədəbalının qızıdır. Sultan Osmanın zövjəsi, Sultan Orxan Qazinin və Əlaəddin paşanın anasıdır. Sultan Osman səltənət taxtına əyləşməzdən əvvəl Şeyx Ədəbalı ilə çox yaxın, mehriban münasibətdə olmuşdur. Onun yaşadığı evə gələrkən Məal xatunu burada görmüşdür. Ona məhəbbət bəsləmişdir. Bir gejə o belə bir yuxu görür: Şeyx Ədəbalının sinəsindən parlaq bir nur peyda olub, onun sinəsində və boynunda işıq saçmağa başladı. Sonra onun ortasından bir ağaj göyərdi və o qədər böyüdü ki, onun kölgəsi bütün yer üzünü əhatə etdi. Bütün dünya əhalisi onun kölgəsində jəm oldular. Sultan Osman bu yuxunu Şeyx Ədəbalıya söylədi. Şeyx onun böyük və əzəmətli dövlətinin olajağını söylədi və öz qızı Məal xatunu Sultan Osmana ərə verdi. Əlaəddin paşa və Sultan Orxan, yuxarıda deyildiyi kimi, onun bətnində dünyaya gəldilər.

Xülasə, bu izdivajla Sultan Osman səltənətinin əsası qoyulmuş oldu və Şeyx Ədəbalı Osmanlı səltənətinin jəddi olduğundan, Məal xatun sultanların jədd olmaq səbəbindən şöhrətlidir.

Məal xatun sultan Osmandan üç ay əvvəl, atası Şeyx Ədəbalıdan bir ay sonra, 725-ji /1325/ ilin axırlarında vəfat etmişdir.

Əlaəddin paşa Sultan Orxanın böyük qardaşı olduğu üçün və türkman lüğətində də böyük qardaşa Paşa deyildiyindən onu Əlaəddin Paşa adlandırırdılar. Bəzilərinin əqidəsinə görə “Paşa” payi-şah sözünün yüngülləşdirilmiş şəklidir. Xalq nümayəndələri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hər padşahı dövlətin baş və ayağına bənzədirlər. Hər halda Sultan Əlaəddindən sonra Osmanlı dövlətində "Paşa" ləqəb kim işlənməyə başladı. Bu ləqəb görkəmli dövlət başçılarına verilirdi. Amma İslam hökmdarlarından Sultan Mahmud ibn Səboktəkin ilk padşahdır ki, Sultan adlandırılmışdır.

## MƏHSƏTİ

[S. 103-104] Fars dilində şerlər yazmış qadın şairələrdəndir. Söz ustadları ilə rəqabətə girə bilən Məhsəti yaxşı təbi, gözəl şerləri ilə bu adı qazanmışdır. bəziləri onun Gənjəli, bəziləri də nişapurlu olduğunu deyirlər. O, hər halda Sultan Sənjər əsrində[60] /XII əsr/ yaşamışdır.

O, Sultanın məjlislərində, onun hüzurunda olurdu. Belə ki, deyirlər bir gün hava buludlu olan vaxt Məhsəti, Sultan Sənjərin hüzurunda imiş. Sultan ona deyir: bayıra get və bax gör ki, hava nejədir? Məhsəti bayıra çıxaraq gördü ki, qar yağır, qayıdaraq bədahətən sultana bu rübaini dedi:

Tərjüməsi

Xosrov etdi səni, ey şahım, fələk,
Verdi şahlıq atı yəhərləyərək.
Atın palçıqlara girməsin deyə,
Yerlərə gümüşdən vurdu bir bəzək.*

Şairənin təxəllüsü "Məhsəti" idi. Bu, mürəkkəb söz olub "meh"-böyük, ulu, "siti" isə xanım mənasını verir. Məhsəti-yəni böyük xanım, ulu xanım deməkdir. Bəziləri "siti" sözünü "seyyidəti" sözünün qısaldılmış forması olduğunu qəbul edirlər. Deyirlər ki, bir gün o, Sultan Sənjərə ərz edir ki, mən Sultanın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kiçik kənizlərindənəm /mən əz kənizane Sultane kehəstəm, [61] /yəni kəmtər və kuçektərəm/ Sultan deyir: Sən böyüksən /yəni məhsəti/. O, bu kəlməni, Sultanın şərəf saydığı sözlərini xəfif "məhsəti" edib, özünə təxəllüs götürmüşdür.

Bəziləri də deyirlər ki, bəlkə də Sultan bu sözü "böyüksən" yox, "aysan" mənasında işlətmişdir. Həkim Sənai bununla əlaqədar belə söyləmişdir:

Mələkül-mövt, [62] mən nə mehsətiyəm
Mən yek pirzale mehnətiyəm.

Məhsəti yalnız şerin çətin növlərindən olan rübai yazmağa meyl etmişdir və yaxşı yazmışdır. Nümunə olaraq verdiyim bu bir neçə rübai onundur:

Tərjüməsi

Ey qəssab! Peşəmdir qəmdə qaynamaq,
Dözərəm sümüyə dəysə də bıçaq.
Adətin kəsinjə satmaqdır, məni
Sabah üçün kəssən, satma gəl anjaq.*

Ey dost, qəmlə keçir sənsiz hər gejəm,
Yandırır yuxusuz gözlərimi nəm
Zülfün tək qarışar yuxularım da,
Nərgizlərin kimi yuxuya getsəm.

Bizi nə ox güjü bir an saxlayar,
Nə də kədər dolu, quru dörd divar
Zülflərin boynunda zənjir olanı
Zənjirlə evdə heç bənd etmək olar?

---

* Тяржцмяляр Низар Ряфибяйлининдир.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Belə zəif olsam da mən gedə bilərəm
Öz gözümdən gizli gedə bilərəm
Mən ah çəkə-çəkə elə kül olmuşam ki,
Ah ilə səmaya qalxa bələrəm.

## MƏLƏK

[S. 92-93] Mələk mərhum Fətəli şah Qajarın nəvəsi və onun oğlu Məhəmmədtağı Mirzə Hüsamüssəltənənin qızıdır. Şahzadə Mahmud Mirzə "Noqle məjlis" kitabında onun seçilən xüsusiyyətlərini yad etmiş, göstərmişdir ki, mən Bürujerdə gedib-qayıtdıqdan sonra, onun şerlərini yoxlayıb duzəliş etmişəm. Xülasə, farsja savadlı, gözəl xəttə malik olması, estetik jəhətləri onu başqalarından fərqləndirirdi. Bu iki beyt onun şerlərindən seçilmişdir:

Tərjüməsi

Mənim gözümdə o şux çiçək eybsiz idi,
Yaxşılıqda və gözəllikdə huri, pəri idi.
Sənə bağlılığıma görə heç kəsin minnətini çəkmirəm,
Bu özgənin deyil, Allaın işi idi.

## MƏLİKİ-USTƏ

[S. 94-95] IV Sultan Məhəmmədin anası Xədijə sultan /onun haqqında kitabın əvvəlində məlumat verilmişdir/ Məliki Ustə adlı həmin qadınla dostluq etmişdir. Bu adda, haqqında danışılan şəxsin 1606-jı ilin əvvəlllərində bir hadisə ilə əlaqədar çinar ağajından asıldığını deyirlər. "Səhayeful-əxbar" da bu qadını Məliki Qadın adlandırırdılar. Zikr olunan şayiə haqqında belə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deyirlər ki, həmin tarixdə qolu güjlü əsgərlər ifadə vermişlər ki, Sultan sarayında bəzi şəxslər vardır ki, dövlətin mühüm işlərinə və əmrlərinə müdaxilə edirlər. Onların vasitəsilə dövlət xəzinəsində və xidmət əhlinin məvajibində kəsir və nöqsanlar əmələ gəlir. Bu şəxslərdən beş-alltı nəfərinin adını çəkərək qətlinə və edamına göstəriş verilmişdi. Bunların hər birini tutaraq öldürmüşdülər və onların jəsədlərini İstanbulda Sultan Əhməd meydanında olan çinardan asmışdılar.

Məliki Ustə və onun əri Şaban Xəlifə və Xajə Bilal Ağanı ki, onlar Sultanın hərəmxanasının xajələri sayılırdılar, onları da həmin adamlardan hesab edərək dedilər ki, bu adamlar da dövlətin vəzirləri kimi bu işlərdə iştirak etmişlər. Ona görə də onları da tədbir görüb tutdular, ələ keçirib öldürdülər və jəsədlərini həmin çinardan asdılar. Bu hadisəni qələmə alan şair Ətvar Tərzi yazmışdır:

Guşi-mərrixə irub təntəneyi-jahü jəlal,
Lərzənak etdi bu qovğakədəyi-afaqı.
Oldu məxmur nejə məst müdam dövlət,
Jami-iqbalə nə tərh etdi bilənməz saqi.
Bağban, qülləki-kinəgüzarı seyr et,
Ət meydanına döndi şəjərü qovaği.

Şerin sonunda ağaj və qovaq barədə olan fikrə qəribə şərh yazmışlar ki, bu inandırıjı deyildir.

“Bürhane qate” müəllifi yazır: “Bu ağaja “Vaq”, yaxud “Vaq-vaq” da deyirlər və joğrafiyaçılar bu əqidədədirlər ki, Çinin adalarından “Vəqvaq” adlı bir adadakı İstifun dağında bir ağaj vardır ki, onun yarpaqları ənjir yarpağına bənzəyir. O, Azər ayında /noyabr- T.H./ gül açır və o gül xurmanın gülünə oxşayır. Bunlardan bəziləri əvvəljə insanın iki ayağına oxşayır. Bu,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

getdikjə Nisan /aprel/ ayının axırınadək tədrijən insan bədəninə oxşar bir şəkil alır. Nətijədə belə nəzərə çarpır ki, gözəl üzlü qızlar öz saçlarından budaqlardan asılmışlar, həziran /iyun/ ayından başlayaraq, budaqdan düşmək vaxtı çatdıqda bu ayın ortasına qədər hamısı tökülür və tökülən zaman vaqvaq səsinə oxşar səslər çıxarırlar

Deyirlər ki, insanlar bu gözəl bədənli qızları o qədər janlı bilirlər ki, bəziləri xoş ətiri hiss etmək üçün onlara yaxınlaşıb qoxulayırlar və çox böyük həzz alırlar. Bu ağajı və adanı həmin səsə görə Vəqvaq adlandırırlar”. Əlbəttə, insanlar təbiətin yaratdığları müxtəlif əşyalara səjdə etmişlər, hətta onları da müəyyən bütlərə oxşadıb onlara sitayiş də edə bilərlər. Şeyxür-rəis belə yazır: Eşitdiklərin qeyri-adi hadisələri zərərli hesab etmə!

## MƏRD XATUN

[S. 81-82] Mərd Xatun məşhur qadınlardan biridir. Səfəvi[52] dövrünün zadəgan ailələrindəndir. Bu qadın Dəməşq əmiri Tajülmüluk Tövri ibn Tuğtəkinin zövjəsi, Şəmsülmüluk İsmayıl və Şəhabəddin Mahmudun anasıdır. O, hökmlü və nüfuzlu bir qadın olmuşdur. 526-jı /1132/ ildə Dəməşqdə, Şamda imarəti olan əri vəfat etdikdən sonra oğlanları onun yerini tutdular. Amma İsmayıl zalım bir şəxs olduğu üçün insanlara əzab verib zülm edirdi, ona görə də qətlə yetirildi. Bəziləri bunu başqa jür izah edirdi. Bu zaman İmadəddin Zəngi Şamı zəbt eləmək üçün Mərd Xatunla evləndi. Lakin Dəməşqə yiyələnmək məqsədinə nail ola bilmədi, ayrıldılar. MərdXatun Dəməşqdə mədrəsə tikdirmişdir. Bu mədrəsə Əşqər vadisindədir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MƏSTURƏ

[S. 86-87] Fətəli şah Xaqanın zövjələrindən olubdur. Mərhum şahzadə Mahmud mirzə “Noqle məjlis” təzkirəsində yazır ki, Məsturə Zənd tayfasının böyük zadəganlar nəslindəndir. Nəvvab Şahqulu Mirzə həmin nadir sədəfdən dünyaya gəlmiş, onun təbiətini özündə biruzə vermişdir. O, hərdən “Zəif” təxəlüsslə xəyalından gələn şerləri yazırdı. Bu iki beyt onun ilhamının məhsuludur:

Tərjüməsi

Sənin gəlişin mənə həyat bağışladı
Sənin gəlişinlə gözlərimə işıq gəldi/.

Və yaxud

Tərjüməsi

Əgər huri jənnətdən qaçarsa
Sənin küçəndən başqa ona sığınajaq yoxdur.

## MİSİRLİ XANIM

[S. 87-88] O,Xəlil Həmid Paşanın oğlu Arif bəyin qızıdır. Fatimeyi-Zəhra xanım əsl adı idi. Misirə gəlin getdiyi üçün orada ona “Gəlin xanım” deyirdilər. O, Misirdən İstanbula qayıtdıqdan sonra bəzəkli, ziynətli gəzirdi. Bu səbəbdən onu misirli xanım adlandırırdılar, Xəlil paşanın jəddi I Sultan Həmid xanın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vəzirlərindən olmuşdur və Baş vəzir kimi yüksək vəzifədə çalışmışdır. Sünbülzadə öz “Divan”ının dibaçəsində iki beytlə ondan bəhs etmişdir:

Məxləsi-paki kibi xülqi[53] həmid[54]
Nəjmi[55]-məsudi  kibi zati Səid[56]
Yəni həmnami-Xəlil ər rəhman
Ki odur məzhəri-ədlü ehsan.

Və onun oğlu Arif bəy haqqında da belə demişdir:

Biridir Arifi-bimislü nəzir[57]

Arif bəy dörd dəfə Rumeli ordusunun qazisi olmuş, dördünjü dəfə olan zaman vəfat etmişdir. O, Misirdə iqamət edən vaxt qızı Fatimeyi-Zəhra xanım Misirin valisi və hökmdarı İsmayılla bir yerdə oynayan həmyoldaş idilər. Məhəmmədəli paşa onu yaxşı tanıdığı üçün bir neçə vaxt keçdikdən sonra İstanbulda olarkən adam göndərib, bu qızı öz oğlu İsmayıl paşa üçün almışdı. İsmayıl paşa Sudan səfəri zamanı həlak olduqdan sonra Məhəmmədəli paşa öz gəlininə təklif etdi ki, onun Misirdə qalmaq və ya İstanbula qayıtmaq fikrini bilmək istəyir. O, javabında belə dedi ki, bundan sonra mənə ər lazım deyildir. Mənim atam da, anam da sizsiniz. Mən sizin mərhəmətiniz sayəsində yaşayıram. Məhəmmədəli paşa bu javabdan çox razı qaldı və onu ömrünün axırına qədər Misirin əziz və möhtərəm məlikəsi kimi qorudu. Misirli xanım Məhəmmədəli paşanın vəfatından sonra İstanbula qayıtdı. Ona İbrahim paşa və Abbas paşa tərəfindən çox yaxşı məvajib verilirdi. Mərhum Sultan Əbdülməjid xan da ona kəmali-iltifat göstərirdi. Misirli xanım Misirdə nejə izzət və hörmətlə yaşayırdı, eləjə də İstanbulda ona ömrü boyu ehtiram və hörmət bəslədilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## NƏFİSƏ SULTAN

[S. 124] Bu adda Ali Osman sülaləsindən bir neçə nəfər xatun olmuşdur. Bunlardan birinjisi Sultan Muradın qızı Nəfisə Sultandır ki, o, 787-ji /1385/ ildə Qırman oğlu Əli bəyə ərə getmişdir. Əli bəy bu şərəfə nail olduqdan sonra üsyan qaldırmaq yolunu tutdu. Naşükürlük etdi. Lakin öz zövjəsinin şəfaəti sayəsində azad edildi, günahı bağışlandı. Nəfisə həmin Əbül Əmitər Süfyanın anasıdır ki, Şamda Məhəmmədül Əminül Əbbasi zamanında qiyam etmişdi.

## NİHALİ

[S. 128] Səmərqənd şəhəri əhlindən olan, fars dilində yazmış şairələrdəndir. Hijri 900-jü /1494/95/ ildə sağ imiş. Səmərqənd şəhərində ürək açan bir yer vardır ki, Beynültaqeyn adlanır. Bir gün şair Müşfiqi bir neçə nəfər digər şairlərlə orada məjlis düzəltmişdilər. Nihali oradan keçirmiş. Onları görərək yaxınlaşmış və demişdir: Dünən gejə bir şer demişəm ki, məzmunu saf, bakirədir və o şer belədir:

(Təjüməsi)

Ay yoxdur ki, çərxin uja yerində olsun
Fələk məni öldürmək üçün qılınjını havada oynatdı.

Məjlis əhli şeri çox təriflədi. Nihali bunu görərək israr etdi ki, kim bajarırsa, qoy bu beytə nəzirə yazsın. Həjv yazmaq təbinə malik olan şair Müşfiqi bu beytə bir beyt həjv yazmışdı. Nihali bu həjvdən xəjalət çəkib, bir daha kişi şairlərin məjlisinə gəlmədi.

Nihalinin tərjümeyi-halı barədə yazılan budur. Müəllif buna təəjjüb edir ki, şairlər məjlisində Nihalinin şerini başa düşmədən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təriflәmişlәr. Şeyx Sәdi rәhmәtullahın dediyi kimi hәr kәsin öz ağlı vә qabiliyyәti onun kamalını göstәrir vә hәr kәs öz övladını jamallı görür.

Ritmik şer yazmaqla bu qadın tәzә mәzmunlu bir şer yazdığını düşünür. “Tağ bala bord” vә yaxud “şәmşir bolәnd kәrd” deyilir. Lakin “tağ bәr hәva kәrd” demirlәr. O, burada iki sәhvә yol verir.

## NİLUFӘR XANIM

[S. 129-130] Qazı Sultan Orxanın zövjәsi, Sultan Murad vә Süleyman paşa Qazinin anasıdır. O, Tәkfur Yarhesarın qızı idi. Osmanlı sultanlarından olan Osman bәyin jәddi Sultan Osman Qazi Anadoluda fәthlәr edәrkәn, o әtrafda Tәkfur, yәni “sahib” lәqәbli olan rumlu hökmdarlar qorxuya düşәrәk, gizlinjә, hәr biri ayrı-ayrılıqda Orxanla dostlaşdılar vә ona hәr tәrәfdәn hәdiyyә vә töhfәlәr göndәrdilәr. Osman Qazi dә yaylaq zamanı qiymәtli әşyalarını vә bir qәdәr yaşlı qadınlarını Tәkfur Bilәjәkә etibar vә etimad edib tapşırmışdı. O zaman Tәkfur Yarhesarın Nilufәr adlı qızını Tәkfur Bilәjәkә  vermәk istәyirdilәr. Tәkfur Bilәjәk isә Osman Qazinin o әtrafda möhkәmlәnib qalmasından narahat idi. Әgәr Osman Qazi orada sakin olarsa, öz müstәqilliyinә vüsәt verәr, o vә başqa tәkfurlar büsbütün mәhv edirdilәr. Tәkfur hәmişә onu arzu edirdi ki, Osman Qazini vә onun ardıjıllarını bir tәdbir görüb hәmin yerlәrdәn uzaqlaşdırıb yox etsin. Ona görә digәr tәkfurları yığıb mәşvәrәt etdi vә qәrara gәldi ki, Osman Qazini Tәkrur Yarhesarın qızı ilә özünün toy mәrasiminә dәvәt etsin. O qәbul edib, gәlsә, zәhәrlәyib



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

öldürsünlər. Xülasə, 689-ju /1290m./ ildə çox təmtəraqlı və geniş toy mərasimi təşkil olundu.

Təkfur Biləjək Osman Qazi ilə yaxın dost olan Xərmən Qiyara hakimi Mixalı dəvət üçün onun yanına göndərdi. Osman Qaziyə vəfalı və sədaqətli olan həmin adam təkfurlarla razılaşdırılmış fikirləri ona çatdırdı. Təsadüfən yaylağ vaxtı idi. Osman Qazi Mixalı yola saldı və dedi ki, qiymətli əşyalarla dolu olan sandıqları və yaşlı qadınları birlikdə Təkfur Biləjəkin yanına göndərəjəyəm və özüm də əsilzadə qohumlarımla yaylağa yollanıb, toy mərasimi olan yerə gələjəyəm. Yaxşı olardı ki, jəmiyyət çox olduğundan toy mərasimi çox geniş yerdə keçirilə idi. Təkfurlar Osman Qazini məhv etməyə razı idilər. Mixalın gətirdiyi şad xəbəri eşidib, toy mərasimi üçün Çağır Peykar çəmənini seçdilər. Osman Qazi öz əsgərlərindən 40 nəfərini seçərək, onlara qoja, qarı paltarı geydirdi və Təkfur Biləjəyin qalasına göndərdi. Özü də atlı və jəsur döyüşçülərlə ziyafət olan yerə gəldi. Həmin jəsur döyüşçülər qalaya çatdıqda orada mərasimlə əlaqədar olaraq bəzi mühafizlərdən başqa kimsəni görmədilər. Onları qılınjdan keçirdilər və qalanı zəbt etdilər. Osman Qaziyə bu hadisəni xəbər verdilər. Qazi agah olduqdan sonra öz atına minib yola düşdü. Özünü elə göstərdi ki, güya qaçır və öz əsgərlərindən bəzisini də arxada qoydu. Özü isə bir neçə nəfərlə münasib bir yerdə pusquda durdu.

Təkfurlar aldandılar və lovğalanıb dedilər: “İndi gərək düşməni qoymayaq janını qurtarsın”. Bunu deyib, onların ardınja getdilər. Pusqu yerinə yaxınlaşdıqda Osman Qazi öz jəsurları ilə şir kimi pusqudan çıxdılar və onları bir-birinin ardınja qılınjdan keçirdilər. Nilufər xanımı, yəni gəlini əsir edib, onu öz oğlu Orxan Qaziyə ərə verdilər. Onu özü Nilufər xanım adlandırdı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xülasə, bu qadın mötəbər olub, xeyrat sahibi idi. Xeyli abidələr ondan yadigardır. O jümlədən Bursa səhrasında axan çayın üzərində olan körpü onun tikililərindəndir və “Nilufər suyu” adlanır.

## NURBANU

[S. 127] Nurbanu III Sultan Murad xanın anasıdır. II Sultan Səlimin sarayının xanımlarındandır və əvvəlinji xatundur ki, Osmanlı dövlətində “Məhdülya” /şahın anasının tituludur. Ali vətən, yüksək beşik deməkdir –T.H./ kimi yüksək adı almışdır. Əskidarda olan “Jameyi-ətiqi-validə” onun tikdirdiyi binadır.

## NURJAHAN BƏYİM

[S. 127] Hind sultanlarından Əkbər padşahın oğlu Jahangir padşahın saray hərəmxanasının xanımlarındandır. Xoş təbə, şirin zəbana malik,  bəzən injə şerlər yazan şair olmuşdur. O jümlədən öz ərini vəsf edən şerləri də vardır. Əri Jahangirin şərəfinə yazdığı şer ona izhari-məhəbbətdir:

(Tərjümə)

Sənin ipək libasının üstündəki qızıl saplı parça ləl deyil,
Sənin zülmünün mərhəmətindən tökülən qan damjılarıdır.

O, bir qəzəlin mətləində belə yazır:

Tərjüməsi

Sənin adını çəkdim və janımı odlara yaxdım
Öz atəşimlə şam kimi alovlandım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Deyirlər ki, əvvəllər padşah sərdarlarından olan Şirəfkən adlı birinə ərə getmişdir. Bu barədə özü belə yazır:

Tərjüməsi

Əgər Nurjahan bu adda qadındırsa
Mərdlər sırasında olan Şirəfkənin qadınıdır.

Şirəfkən vəfat etdikdən sonra padşahın hərəmxanasına daxil olan Nurjahan bəyim xanımlar jərgəsində olsa da, məşhur qadınlardandır. O, bu beytlərin də sahibidir:

Tərjüməsi

Məni öldürməklə sevinirsən, nə olsun
Lakin sənin xənjərin mənim qanıma bulaşıb.

Aşağıdakı dəyişikliklər nəzərə çarpan qitəni ona aid edirlər:

Tərjüməsi

Vay o düşünjəsiz şairlərə ki,
Bir səhvi qəbul etmişdir
Sərvi yarın qəddinə bənzədirlər
Onun üzünü aya oxşatmadan.
Ay natamam planetdir,
Sərv yonulmamış bir ağajdır.

## **PADŞAH XATUN** /654/1254-694/1295/

[S. 69] Kirmanda hakim olmuş Qaraxitailər hökmdarlarının altınjısıdır. O, Səfvətəddin adı ilə məşhurdur və Qütbəddinin qızı olan bu qadın fazil hökmdar və şairə, xoş xəttə malik idi. Özündən əvvəl Kirman hökmdarı olmuş qardaşı Soyurqatmışı hijri 691-ji /1292/ ildə qətlə yetirərək onun yerinə keçmişdir və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bu əyalətdə səkkiz il hökmranlıq etmişdir. Aqibəti belə olmuşdur:

Soyurqatmışın zövjəsi Kərduçin ətrafına ordu yığaraq, Padşah xatuna hücum etmiş, ona qalib gəlmişdir, ondan ərinin qisasını alaraq, ölümə məhkum etmişdir. Bu iki beyt Padşah Xatunundur:

Tərjüməsi

Mənim dayağım olan ismət pərdəsindən
Səhər yelinin dağıtdıqları çətin keçə.
Qadının başı həmişə çadra altında olsun
Ki, onun əsası və kökü möminlik və ləyaqətdir.

## PADŞAH XATUN

[S. 69] "Səhayif-ül-əxbar"ın ikinji jildinin 598-ji səifəsinin haşiyəsində qeyd olunduğu kimi Xurşidiyyə Atabəylər sülaləsindən olan bir qadın Xürrəmabadda hökmdar olmuşdur. O, Padşah Xatun adlanmışdır.

## PƏRİXAN XANIM

[S. 76] Səfəvi padşahlarından I Təhmasibin qızıdır. Çox nüfuzlu və hökmran qadın idi. Təhmasibin ölümündən sonra bu padşahın əhli-hərəmi iki dəstəyə ayrıldılar. Bir dəstə Təhmasibin oğlu Heydər Mirzəni, digər dəstə isə Qəhqəhə qalasında[4] məhbus olan Heydər Mirzənin qardaşı İsmayıl Mirzəni hakimiyyətə gətirmək istəyirdilər. Pərixan xanım İsmayılın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hakimiyyətə gəlməsinin tərəfdarı idi. Onun səyi nətijəsində İsmayıl Mirzə İran səltənətinin hökmdarı oldu.

İsmayıl Mirzəni Qəhqəhə qalasından çıxarıb, Qəzvinə gətirənədək hakimiyyət Pərixan xanımın əlində olmuşdur. Elə ki, İsmayıl Mirzə padşah oldu, gözlənildiyinin əksinə olaraq Pərixan xanım uzaqlaşdırıldı. Bu qadın dövlətə lazım olduğu halda daha işə müdaxilə etmirdi. Elə ki, İsmayıl Mirzə vəfat elədi, Böyük şah Abbasın atası Məhəmməd şahı Şirazdan səltənətə gətirdilər. Bu zaman Pərixan xanım hakimiyyətdə əmələ gəlmiş boşluqdan istifadə edərək, yenidən dövlət işlərini əlinə aldı. Məhəmməd şah Qəzvinə gələrək, taxta əyləşəndən sonra Pərixan xanımın nüfuzunu özünün uğursuğluğu bildi, onu qətlə yetirdi.

## PƏRTÖV PİYALƏ

[S. 75] Əlahəzrət II  Sultan Əbdulhəmid xanın əmisi mərhum Sultan Əbduləziz xanın anasıdır. Çox ləyaqətli, xeyriyyəçi olan bu alijənab qadın vaxtilə Katib Jamesinə yanğın düşərək onu tamamilə məhv etdikdən sonra hijri 1288-ji / 1871 / ildə müqəddəs bir jame və kiçik bir kitabxana, su anbarı və başqa yararlı binalar tikdirmiş, oraya xidmətçilər, azançılar və imam təyin etmişdir. Orada özü üçün ali məqbərə tikdirmişdir. Mərhum Sultan Əbdüləziz xan dəyəri 100 min lirədən artıq olan bir əla buxar gəmisi düzəltdirib, onu öz əziz validəsinin şərəfyinə Pərtov Piyalə adlandırmışdır. Əlahəzrət şahənşah /Nəsrəddin şah – T.H./ hijri 1290-jı ilin jumadəlaxırın 23-də /20 avqust, 1873/ bu gəmi ilə İstanbula varid olmuşdu və mərhum



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sultan Əbdüləziz xan xüsusi qayıqla bu gəmiyə gəlib Nəsrəddin şahı qarşılamışdır.

## RƏVİDƏ XANIM

[S. 170] Osmanlı dövlətinin elmli və fəzilətli qadınlarından olub, Yusif paşanın "Rüşdiyyeyi-ünasiyyə" məktəbində müəllimlik etmişdir. Şer yazmaq qabiliyyəti olan bu qadın 5-ji Sultan Murad xanın taxta əyləşməsi tarixini nəzmə çəkmişdir. Bu şer qəzetlərdə dərj olunaraq yayılmışdır.

"Rüşdiyyeyi-ünasiyyə" məktəbində dərs deyən qadınlardan biri də Fatimeyi-Zəhra xanımdır ki, Sultan Əhmədin məktəbində oxumuşdur. O, hijri 1278-ji / 1861/62/ ildə İstanbulda anadan olmuşdur.

## SAHİBƏ

[S. 124] Xaqan Fətəli şahın övladlarından olan saray şahzadələrindəndir. Şair təbiətli bir xatun olub Sahibə təxəllüslü idi və onu həyalı olması, təmiz əxlaqı, gözəl surəti ilə tanıyırdılar. Amma onun tərjümeyi-halı dəqiqliyi ilə, aydın yazılmamışdır. Deyirlər ki, o, ağıla, biliyə rəğbət bəsləyirdi. Yaxşı xətlə yazmağı bajarırdı. Şairlik qabiliyyəti onun şerlərindən məlumdur və bu üç şer nümunəsi onundur:

Tərjüməsi

Sənin böyük həsrətindən ölsəm nə qəm
Mən istəyirəm ki, sənin lütfün kəm olmasın.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tərjüməsi

Saçını üzündə görən hər kəs deyir,
Oddur ki, his /duda/ ilə qarışmışdır.

Tərjüməsi

Jan və inam məşuq üçündür,
Jan və inam aşiq üçün deil.

## SETİ XATUN

[S. 57] Məşhur osmanlı qadınlarındandır və Sultan Bayazid xan dövrü əyanlarından Şeyxülislam Zeynallı Əli əfəndinin qızıdır. "Həqiqət ül-jəvame" də yazılmışdır ki, Səluri Qapısı yaxınlığında bir məsjid və bir mədrəsəsi vardır və bir məhəllə onun adı ilə adlandırılmışdır. Özü isə atasının bina etdiyi bir məktəb ərazisində atasının qəbri yaxınlığında dəfn edilmişdir.

## SƏFİYYƏ

[S. 135] Səfiyyə Xəlvətiyyə[25] kübarlarından olan Jamal Xəlvətinin qızıdır. Osmanlı sultanı II Bayazid /1354-1403/ xanın dövründə Jamal Xəlvəti zəmanəsinin yüksək mövqe tutmuş şəxsiyyəti hesab olunurdu. O zaman İstanbulda bir-birinin ardınja baş verən zəlzələ, taun xəstəliyi insanları həlak etmişdi. Jamal Xəlvəti və alimlərdən bir neçəsi bu zaman Sultan tərəfindən Mədineyi-Münəvvərəyə göndərildi ki, onlar orada müqəddəs Peyğəmbərlərə mərsiyə oxusunlar və həmin bəlaların rəf olunması üçün onlardan iltimas etsinlər. Elə həmin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gün də, müşarileyh yola düşdü və Əsgidara qədəm qoydu, həmin bəlalar rəf oldu və daha heç kəs bəla görmədi. Bu dəlil Jamal Xəlvətinin böyüklüyünü və qeyri-adiliyini göstərirdi. Amma özü bu hadisə haqqında belə deyirdi ki, bu mənim xahişimin yerinə yetirilməsi demək deyil, əksinə, mən İstanbul jamaatının arasında olduğum üçün onlar bu bəlalara məruz qalmışdılar. Elə ki, mən ayağımı kənara qoydum, tamam asayiş oldu. Xülasə, o, ziyarətinə davam etdi və Allah evinə, həjj ziyarətinə getdi. Onun vəsiyyətinə əməl edən qızı Səfiyyə Sünbül Əfəndiyə ərə getdi. Sünbül əfəndi Jamal Xəlvətinin müavinlərindən biri olmuşdur.

## SƏFİYYƏ XATUN[28]

[S. 135-136] III Sultan Məhəmməd xanın anasının adıdır və Osmanlı sultanı III Sultan Muradın zövjələrindən biridir. III Sultan Murad xan taxta əyləşənə qədər Səfiyyə xatun onun yeganə zövjəsi idi. Taxta əyləşdikdən sonra həmşirəsi Əsma xan Soltan tərəfindən ona sözlə deyilə bilməyən gözəlliyə malik bir neçə kəniz göndərilmiş, lakin deyilənlərə görə bu kənizlərlə onun heç bir yaxın münasibəti olmamışdır. Səfiyyə xatunla mehriban olmayan Sultan Muradın anası Nurbanu xatun bunu eşitdikdə öz həmsöhbətləri olan şəhərin bir neçə qadınını yığaraq oğluna əlaj etmişdir.

## SƏFİYYEYİ-ZAHİDƏ

[S. 134-135] İranın zahidə qadınlarından olub, Sultan Əbu Səid xanın müasiri idi. Zöhd[26] və səlah[27] ilə şöhrət tapmış bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qadındır. Bir çox kişi və qadınlar onun müridləri olmuşlar. Sultanın süd bajısı olan Qənqərat xatun da həmçinin Səfiyyə Zahidəyə etiqad edəni, onun müridi olmuşdur, həmişə ona sadiq olaraq onu ziyarət etmişdir.

Ziyarətlərindən birində mahir şair Sirajəddin Qəmərini də özü ilə aparmışdır. Rzaəddin ibn Fəxrəddin onun türk nəslindən olduğunu yazır.

## SƏFVƏT

[S. 127] İstanbulun ədibələrindən sayılır. Fətin təzkirəsinə əsasən onun Mühib əfəndi Bəkləkçinin qızı və Rüfət bəy adlı bir şəxsin zövjəsi olduğu məlumdur. Həmin təzkirədə onun aşağıdakı beytləri dərj olunmuşdur:

Düşmə derdim dəxi bir dərdə könül, ah, sana,
Yenə düşdün yeni bir dərdə kim, ey vah, sana.
Bağlayıb zülfü ilə bu gejə möhkəm, tuydum,
Əski divanə dedi, ey könül, ol mah sana.
Nejə bir rahi-məjazə gedəjəksin, yahu,
Bildirə toğri yoli həzrəti-Allah sana.
Dün görüb hali-digərkunimi etdin insaf,
Qalibə etmiş əsər ahi-səhərgah sana.
Səfvəta, razi-dilin kimsəyə izhar etmə,
Qün olur yardım edər bir dili-agah sana.

Səfvət hijri 1053-jü /1643/44/ ildə vəfat etmişEyyubda, atasının məqbərəsində dəfn olunmuşdur[24].

## SƏRVİJAHAN XANIM



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 60] Fətəli şah Qajarın qızlarındanıdr. Onu mərhum Ağa xan Məhəllatiyə ərə vermişdilər. Mərhum Əlişah onun oğlu və Sultan Məhəmməd şah nəvəsi idilər.

## SİDQİ ÜMMƏTULLAH QADIN

[S. 125] Əbdürrəhman əfəndi Qamətizadənin oğlu Məhəmməd əfəndinin qızıdır. Məhəmməd əfəndi 1089-ju /1678/79/ ildə vəfat etmiş və Əmiri-Buxaranın hüjrəsinin yaxınlığında Ədiriə qapısı /İstanbul qapısı/ adlanan yerdə dəfn olunmuşdur. Bu qadın İstanbul ədiblərindən sayılır, ilahiyyata maraq göstərmişdir. Şerlər divanı və bəzi başqa əsərləri vardır. Atası iki dəfə İstanbul qazisi olmuş, Əyyub adlanan məkanda vəfat etmişdir. Onun qızı Sidqi Qadın, atası öldükdən sonra aşağıda dərj olunan qitəni yazmış, burada onun vəfatı tarixini bildirən maddeyi-tarixi vermişdir:

Qamətizadə əfəndi edijək əzmi-jinan
Ağladı anın içün matəm edib üns ilə jan
Dedi tarixi-vəfatını qızı Sidqi anın
Qamətizadəyə əlayi irəm ola məkan.

25 il sonra, yəni 1115-ji /1703/04/ ildə Sidqi Ümmətulla Qadın vəfat etdi. Onun vəfat tarixini “Sidqiyi-Fazil” demişlər. Bu kitabın “Əlif” hərfində, Ümmətullah ünvanında zikr olundu və onun təbindən bir qitə dərj olunmuşdur.

## SİRRİ XANIM



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

[S. 60-63] Diyarbəkirli şairədir, hijri 1230-ju /1814/15/ ildə Diyarbəkirdə doğulmuşdur. Yetkinlik çağından elm və ədəb təhsilində çalışmışdır. Türkjə şerlər yazmaqda yədi-tula sahibi olmuşdur. Əsrinin bəlağətlisi hesab olunurdu. Bəzi şerləri "Xərabat" adlı təzkirədə dərj edilmişdir və bir sıra təxmisləri, təsdisləri, qəzəlləri və başqa şerləri də vardır ki, bunlar da seçilirlər. Bu aşiqanə qəzəli və bir bəlağətli mərsiyəsi ziynətli vərəqlərdəndir:

## QƏZƏL

Morği-dil pərvazə gəldi, lanələr ağlar bana
Çıxdı zünnarım bu kəz, qəmxanələr ağlar bana
Yandırar isəm şəbi-tarik dili-naşadımı
Rövşən olsa pür yaxar, pərvanələr ağlar bana.
Aşinalar sənnən tənəndaz olurlar hər tərəf
Vaqif olsa halıma biganələr ağlar bana.
Kətmi[11] güj, izharı güj bir dərdə oldum mübtəla
Darusaz[12] bilməz təbib, kaşanələr ağlar bana.
Tuş olursa məktəbi-ürfanə rahım hərqçən,
Həsrət ilə tifli-fərzəndanələr ağlar bana.
Saqi, bəzmin ilən ölsəm ayağın çün gözəl
Dilbərim diltəng olur, peymanələr ağlar bana.
Kaseyi-mizabi-saqidən içib məst olmuşam,
Halıma agah olan məstanələr ağlar bana.
Sirri, bir viranədə bir gənjə irdin misli yox,
Həsbi-halım söyləsəm divanələr ağlar bana.

## MƏRSİYƏ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fərağət gəlmişəm fani jahandan xəsm janandır,
Nə bilsün mehribanlıq rəsmin ol kim, əsli nadandır.
Fələk dilxahım üzrə dönmədi bir, gəştiyi-dövrandır,
Nihali-nazəninimdən jüda halım pərişandır.
Bənim könlüm qızılgül qönçəsivəş toptolı qandır.
Açılmaq ixtiyar etməz, əgər yüz bin bahar olsa.
Baharin ruzi-novruzun tuyub şad olsa həb güllər,
Dərib geysuların təbrikə gəlsə bağa sünbüllər
Bu əsna hər tərəfdən nəğməsaz olsa şirin dillər
Dili-pürdərdimə guş etsə bülbül ney kibi inlər.
Bənim könlüm qızılgül qönçəsivəş top-toli qandır
Açılmaq ixtiyar etməz əgər yüz bin bahar olsa.
Bu bağın sərvqədd bir laleyi-zarımdan ayrıldım
Dirəxti-ömrümün şirinsüxən yarımdan ayrıldım
Məlamət eyləmən, Allah üçün yarımdan ayrıldım
Həqiqət rahının Mənsuriyəm, darımdan ayrıldım.
Bənim könlüm qızılgül qönçəsivəş toptolı qandır
Açılmaq ixtiyar etməz əgər yüz bin bahar olsa.

***

Fəraqi-dudi-həsrətdir çıxan qəndili-janımdan,
Səmada qatbeqat əbri-bahar olmuş dəhanımdan
Görəydih-üznümü Yəqub, fərar edərdi yanımdan
Dəmadəm pürrümuz eylər səda həp üstüxanımdır.
Bənim könlüm qızılgül qönçəsivəş tobtolı qandır,
Açılmaq ixtiyar etməz əgər yüz bin bahar olsa.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

***

Qəza peykanına nagah jiyərparam siyər[13] oldu,
Nişanə uğradı təqdiri-rəbbani yerin büldu,
Açıb pər mürğu-ruhi baği-firdovsə rəvan oldu
Tərəhhüm etmədi, bu natəvanı, yaxdı-yandırdı.
Bənim könlüm qızılgül qönçəsivəş tobtolı qandır
Açılmaq ixtiyar etməz, əgər yüz bin bahar olsa.
Nihani-şəmi-eşqə yanmağa pərvanəyəm şimdi
İçi dildar ilə məmlu[14], dışı biganəyəm şimdi.
Burax bu, ahu zarı həsrəti-qəmxanəyəm şimdi
Fələk jamiylə səmm[15] nuş etmişəm məstanəyəm şimdi.
Bənim könlüm qızılgül qonçəsivəş tobtolı qandır,
Açılmaq ixtiyar etməz, əgər yüz bin bahar olsa.
Səladır[16] əhli eşqə jəm olub ürfanı görsünlər,
Sərayi-xəlvətə hökm eyliyən sultani görsünlər,
Məlamət xirqəsindən gizlənən üryanı görsünlər
Hələ vəqtim yox imdi, Sirriyi-suzani-görsünlər
Bənim könlüm qızılgül qönçəsivəş tobtolı qandır
Açılmaq ixtiyar etməz, əgər yüz bin bahar olsa[17].

Bu qəzəl və mərsiyə Sirri xanımın öz xətti ilə yazılmadığından belə fərziyyələr gəzir ki, bəzi kəlmələr mənasız və yozmalı olduqlarından şer şivəsinə ziddir, görünür ki, naşı bir adamın qələmi ilə yazılmış, qarışıq salınmışdır.

4-jü mərsiyənin əvvəlinji bəndi mərhum Nabinin bu qəzəlini xatırladır:

Sərim üstündə qat-qat dudi-ahım əflakə dönmüşdür,
Qübari-qəm könüldə tudə-tudə xakə dönmüşdür.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sirri xanımın İraq və Ərəbdə dəfn olunmuş imamlara məhəbbəti və əqidəsi olduğu üçün, bu səbəbə görə o, bir neçə il bundan əvvəl Bağdada səfər etdi, o ətrafda olan Ətabati-aliyyəyə ziyarət elədi. Ondan sonra Diyarbəkirə qayıdaraq, oradan İstanbula gəldi və mərhum Kamil paşanın evində sakin oldu.

## SULTAN

[S. 92] Fətəli şah Xaqanın oğlu mərhum Mahmud mirzənin qızının təxəllüsüdür. Mahmud mirzə Fətəli şahın xanımlarına həsr etdiyi bir təzkirəsində onlara aid edilən  şer nümunələrini də vermişdir. Təzkirəni “Noqle məjlis” adlandırmışdır. Bu təzkirədə yazırdı: Adsız kiçik qız Sultan ömrünün əvvəlindən ta 18 yaşınadək mənim “Dəbistani-Tərbiyət” məktəbimdə böyüyüb inkişaf etmiş, lakin məndə onun şerlərindən az bir hissəsi qalmışdır. Bunlar şikəstə xətti ilə yazılmış, bu xəttlə yazmağı da məndən öyrənmişdi, təxəllüs seçməyi də məndən soruşdu və Sultan təxəllüs oldu. Min beytdən ibarət bir dəftəri vardır. Bu bir neçə şer oradan seçilmişdir:

Tərjüməsi

Ey Səba, o yarın küyünə get və söylə ki,
Gəlmədin və sənin hijrindən əzab çəkdik.

VƏ YAXUD

Tərjüməsi

Sənin xəyalınla sənin kuyində behişt istəmirəm
Huri sənsən, behişt sənin kuyindədir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

VƏ YAXUD

Tərjüməsi

Ey dil, kuyindən gör nejə keçirəm,
Gülə-gülə gəlib, ağlaya-ağlaya gedirəm.

VƏ YAXUD

Tərjüməsi

Mən azadlıqda ola-ola elə əzab çəkirəm ki,
Heç kəs o əzabı əsirlikdə çəkmir.

## SULTANBƏXT

[S. 92-93] Əmir Teymur Gürganinin qızıdır. İbn Həjərin "Ənba"sında olan məlumata görə, "Teymuri" tarixində yazıldığı kimi bu qadın kişi xasiyyətli və xislətli olmuşdur. Əvvəl heç bir ər qəbul etməyib nigahlanmadısa, sonra Bağdad xatunları ilə söhbət edib, ülfət və mülayimlik kəsb etdi və Süleyman şahla izdivaj eylədi. "Əxlaqi-əlai" da bu qadının adı Jahanbəxt kimi yazlmışdır. "Səhayef əl-əxbar"da göstərilir ki, Əmir Teymurun iki bajısı olmuşdur, biri Qutluq Türkan Ağa, digəri Şirinbəyi Ağadır.

## SULTAN RƏZİYYƏ

[S. 145] Şəmsəddin İltutmuş Məhəmməd sultanın /1211-1236/ qızıdır. /Şəmsəddin 1211-1236-jı illərdə Dehlidə müsəlman-türk dövlətinin hakimi olmuşdur - T.H./ Şəmsəddin hindistanın bəzi vilayətlərində hakim olmuşdur. Onun sülaləsi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hijri 602ji ildən 690-jıilədək / 1206-1291/ hakimiyyətdə qalmışdır. Şəmsəddin bir neçə oğlu olmasına baxmayaraq, onlardan öz ağlı və fərasəti ilə seçilən qızı Rəziyyəni vəliəhd etmişdi. Rəziyyə hələ atasının sağlığında özünün əxlaqı və dərrakəsi ilə öz qardaşlarından üstün olduğu üçün dövlətin sərənjam və işlərinə daxil olmuşdu. Atasının vəfatından sonra, 634-jü ildə hökmranlıq taxtına əyləşdi. Özünün qadın libasını dəyişərək, əyninə qaba, başına taj qoydu, üzünə niqab bağladı.

Bəziləri də deyirlər ki, atası İltutmuş vəfat etdikdən sonra, hökmranlıq onun oğlu Rüknəddin Firuz şahın ixtiyarına keçmişdi. Lakin yüngülxasiyyət olduğundan dövləti anası /Şah Türkan – T.H./ idarə etmiş, yeddi aydan sonra bu vəziyyəti düzgün saymayan əmirlər və əyanlar ona itaət etməyib, Rüknəddin Firuz şahı tutub həbs etmiş və bajısı Sultan Rəziyyəni onun yerinə taxta əyləşdirmişlər. Xülasə, Rəziyyənin hakimiyyəti zamanı dövlət əyanlarından ona düşmən olan bəzi qüvvələr əmələ gəlmiş və bir neçə dəfə hökmdarla onlar arasında müharibə baş vermişdi. Bu döyüşdə Rəziyyə qalib gəlmişdi. Axırda onu tutub qalada həbs etdilər və Dehlidə hakimiyyət taxtına qardaşı Müizəddin əyləşdi. Bu hadisə hijri 635-ji /1237 aprel/ ilin ramazan ayında baş vermişdir. Sultan Rəziyyə 637-ji /1240/ ildə, yaxud 638-ji /1241/ ildə həbs olunduğu qaladan azad oldu və Dehli tərəfə getdi, o ətrafda apardığı döyüşdə məğlub oldu.

## SULTAN ŞAH

[S. 103-104] Sultan şah bir neçə hörmətli Osmanlı xanımlarının adıdır. O jümlədən I Sultan Səlim xanın /hakimiyyət dövrü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1512-1520-ji illər - T.H./ qızıdır ki, Sədri-əzəm Lütfi paşanın zövjəsi olmuşdur. Mərkəz Əfəndiyə meyli var idi. O, İstanbulda Davud paşa məhəlləsində bir Jame məsjidi və bir təkyə, xanəgah /dərvişlərin yaşadıqları və ibadət etdikləri yer – T.H./ tikdirmişdir. Sonralar bu xanəgahı mədrəsə etmişdir. “Səhayef əl-əxbar” da yazılır ki, Lütfi paşa jəsur, mərd adam idi və bu səbəbdən o, şah Sultan ilə nəzakətli rəftar edə bilmədiyindən, Sədri-Əzəm vəzifəsindən uzaqlaşdırıldı və ər-arvad arasında təfriqə düşdü.

Başqa bir Sultan Şah isə Sultan Süleymanın qızıdır. O, İstanbuldakı Eyyub məhəlləsində Şah Sultan təkyəsini tikdirmişdir. “Tarixi Jövdət paşa” və “Səhayef əl-əxbar” kitabının 7-ji jildində deyilir ki, Sultan şah adı ilə III Sultan Mustafa xanın qızının da adıdır. Adı çəkilən xanım kasıblara yardım edir, kimsəsizlərə, xəstələrə əl tuturdu. O, bəzi xeyriyyəçi əməllər üçün bir sıra binalar tikdirmişdir.

## ŞAHBAZ

[S. 117-118] İran kübarlarından Şahbaz xan Dünbulinin qızıdır. Adı Sahibə Sultan olub, bilik ziynəti ilə bəzənmiş, xoş təbə malik idi. Aşağıda mərhum Fətəli şah Tabsərahın oğlu mərhum Həsənəli mirzəni mədh edən rübaisi dərj olunmuşdur:

Tərjüməsi

Şahzadə Həsən jəsur və ordu məğlub edəndir,
Xoşsimadır və şirin süxəndir,
Şahənşah bağında sərvi-xuramandır,
Şahanə gülşəndə yasəmən gülüdür.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ŞAHJAHAN

[S. 203-204] Bxopal məmləkətinin valisi olmuşdur. Hijri 1254-jü /1838/ ildə Bxopalın İslambəkirşah şəhərində anadan olmuşdur. Hijri-qəməri 1263-jü /1847/ ildə atası vəfat etdikdən sonra 9 yaşlı Şahjahan atasının yerinə həmin məmləkətin hökmdarı olmuşdur. Hökmdar olarkən məmləkətdə fars elmlərini, xəttatlığı və siyasət elmlərini nizama və qaydaya salmışdır. Şəvval ayının 9-u 1276-jı /1860, 1 may/ ildə, 22 yaşında dövləti idarə etməyi anasının ixtiyarına buraxıb, özü öhdəsində tiyul və xass torpaqları olan vilayətə getdi və bunlarla kifayətləndi. Hijri-qəməri 1285-ji ilin şaban ayında /1868 noyabr/ yenidən ö ztaxtına qayıtdı.

Müşarileyhənin İngilis dövlətinin yanında etibarı və nüfuzu böyük idi. O, bu dövlət tərəfindən ali dərəjəli hind ulduzu nişanına və başqa mükafatlara layiq görülmüşdür. Deyilənə görə Hindistanda Şahjahan və Aləmgir padşahın qızı Zeiybünnisə Bəyimdən başqa heç bir qadın elm və fəzilət sahibi deyildi. Şahjahan ritmli şerlər yazırdı və bu şerlər məşhur idi. Onlardan nümunə olaraq, bir neçə beyti ixtisarla veririk:

Tərjüməsi

Qol-qanadını açsa toru qırar,
Elə bir ov ki, ovçunun əlindən qaça bilmir,
Qədir bilməyən adam hər şeyi ujuz başa düşür.
Əbəs yerə öz qədr-qiymətimi itirdim,
Ürəyini sıxma, Şahjahan, bu məhəbbətdir
Yüz dəfə yaşasam da yenə ölüm arzularam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tərjüməsi

Bizim ulu hədiyyəmizi başa düşdü
Bizim əməllərimiz onun hüzurundadır.
Ajizlik padşahlarda qəbul olunur
Şahların yanında nazımı kim çəkər?

## ŞƏJƏRƏDDÜRR*

[S. 104-109] Misirin hökmdarı olub, məşhur müsəlman qadınlarındandır. Kənizlikdən ali məqama yüksəlmişdir. Bu qadın türk mənşəli olmuşdur. Misirin tarixçiləri və digər tarixçilər onun haqqında məlumat vermişlər. Künyəsi ümmi-Xəlildir. Onun Sultan Nəjməddin Əbu əl-Fütyh Əyyubdan Xəlil adlı oğlu olmuşdur. Xəlil uşaqlıqda, kiçik yaşlarında vəfat etmişdir.

Şəjərəddürrün əri Məlik Saleh[19] Məlik Adil Seyfəddin Əbu Bəkrin qardaşıdır. Bu silsiləni kürdlər və Əyyubilər adlandırırlar. Əyyubilər müəyyən dövrdə /1171-1250/ Misir, Şam, Yəmən və qeyri yerlərdə hakimiyyətdə olmuş şahlar sülaləsindəndir və

---

* Шяжярядцрр тцрк Абдулланын гызыдыр. Мялик Салещ Няжмяддин Яййуб онун эюзяллийиня вурулараг пулла алмышдыр. О, тез бир заманда ямин олду ки, Шяжяряддцр эюзял олдуьу гядяр дя чох аьыллыдыр вя Хялил адлы оьул дцнйайа эятирдикдян сонра бу гадынла гануни олараг евлянмиш вя ону Султан арвады елан етмишдир.

Мялик Салещ жямиййят арасында даима онунла олур, онунла фяхр едир, онун аьыллы сющбятляриндян сон дяряжя хошланырды. Мялик Салещ ямиси оьлу тяряфиндян ясир алындыьы заман Шяжяряддцрр онунла бирликдя Кяряк галасында галмыш, онун чятин эцнляриндя йанында олмушдур. Мялик Салещ Мисирдя султан оларкян Шяжяряддцрр онунла эетмиш, орада 6 йашлы оьлуну итирмишдир. Шяжяряддцрр 1249-жу илядяк, йяни яринин юлцм жцнцнядяк онун йанында олмушдур. Аьыллы султан гадын, Дямийат франсызлар тяряфиндян ишьал олундуьу вахт яринин юлцм хябяринин нежя бир иьтишаша сябяб ола биляжяйини баша дцшцрдц вя дяфн мярасимини чох бажарыгла тяшкил етмишди.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

onlar islam dünyasına böyük xidmətlər etmişlər. Bu sülalənin banisi olmuş Sultan Səlahəddin Yusif ibn Əyyubinin adı, demək olar ki, islam tarixindən əvvəl Avropa tarixində məlumdur.

Onun həqiqət uğrunda apardığı mübarizələrinin və müharibələrin şöhrətini söyləməyə ehtiyaj yoxdur. Şəjərəddürrün əri Məlik Saleh Nəjməddin Əyyubun vəfatı ilə bu sülalə bitmişdir. Onların əsli İran əhalisindəndir. Belə ki, "həkariyyə" firqəsi iran kürdəlrindən ibarətdir. Sultan Səlahəddinin atası Əyyub və əmisi Şirkuh Azərbayjan əyalətindəndir.

Şeyx Təqiəddin Müqərrizi deyir: hijri 647-ji /1249/50/ ildə prins Rivadın başçılıq etdiyi Fransa ordusu Dəmiyat şəhərində göründü, oranı zəbt edərək, ərazini işğal etdi. Məlik Saleh Nəjməddinin Əyyub Əyyubi ki, o vaxt sultan idi, o, müdafiə məqsədilə Dəmiyat tərəfə hərəkət etdi. Eşmum Tənah adlanan yerə çatdıqda onun xəstəliyi şiddətləndi və o, vəfat etdi. Onun yanında olan Şəjərəddürr çox mərdanə tədbir gördü, diqqətlə səy göstərərək gizlijə onun dəfni ilə məşğul oldu. O bir nəfərlə məktub göndərərək Turan şah bin Məlik Saleh Nəjməddini "Hüsnü-Keyf" qalasından çağırtdırdı. Özü Sultanın ölüm xəbərinin xalqa çatdırılmasının qarşısını aldı və ordunu əvvəlki qaydasında hazırladı ki, vəliəhd təyin etdiyi Turan şahın hüzurunda dursunlar. O, dövlətin bütün kargüzarlarını və bütün təbəqatını hər gün yığdı və sultanlıqda qayda yaratdı. Şəjərəddürr bütün hökm və əmrləri özü verməyə başladı, müqavilələri özü bağladı. Səltənətin bütün işlərini şəxsən özü idarə etməyə başladı. Əlbəttə, Turan şah gəlib çıxınja Sultanın ölümü barədə heç kəsin dilindən bir söz eşidilmədi. Bu hadisədən uzaq-yaxın, heç kəs, heç nə bilmədi. Əgər Şəjərəddür bu tədbiri görməsə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

idi, yəqin ki, müsəlmanların ordusu bütün Fransa ordusu tərəfindən ayaqlara düşüb məhv olajaqdı.

Xülasə, elə ki, Turan şah Şəjərüddürün məktubunu aldı və oxudu, majəradan xəbərdar oldu, ramazan ayının ortalarında atlı dəstələri ilə Hüsnü-Keyfdən tərpəndi. Dəməşqə yetişən vaxt Dəməşq şəhərində Misir və Şam səltənətinin taxtına əyləşdi. Bu tarix düşənbə günü 27 ramazan 647-ji hijri ilinə təsadüf edir / Miladi tarixlə 5 yanvar 1250-ji il/. O vaxt Dəməşq şəhərindən xarij olub, Salihiyyədə mənzil etdi və oradan Misir məlikliyinə tərəf hərəkət etdi, 21 zülqədədə Mənsurəyə yetişdi. O vaxtdan Şəjərəddür əyanları jəm edərək, hakimiyyəti o zaman Məliki-müəzzəm ləqəbi almış Turan şaha təqdim etdi. Lakin Məliki-müəzzəm nalayiq işə başladı. O vaxt ordu və əsgərlər yerləşən Bəhriyyəyə qarşı hədə-qorxu gəldi. O, Şəjərəddürlə arzu edilən rəftara xilaf çıxaraq fransızlar üzərində qələbəni təkjə öz adına çıxardı. Onu hədələdi. Atasının mal, pul və dövlətini ondan tələb etdi. Nətijədə Şəjərəddürün səbri tükəndi. Turan şah öz jəzasını aldı. O, Şəjərəddürün əsgərləri tərəfindən öldürüldü. Şəjərəddür Misir və Şam səltənətlərinin taxtına əyləşdi.

Xülasə, bu vaqeə belədir ki, Sultan Məlik Saleh Nəjməddin Əyyub Goruhi məmlüklərdən ibarət öz nizami ordusunu son dərəjə yaxşı saxlamış, onları öz dövlətinə daxil edib, başqa təbəqələrdən olan nökərlərindən daha yaxşı nəzərə almış və onların adını “Bəhriyyə” qoymuşdu. Fransızlar üzərində qələbə də məhz məmlüklərin hesabına qazanılmışdı. Onların hamısı türk nəslindən olmuşlar. Bunlar həmin jəmiyyətdir ki, kordiya sülaləsindən /Əyyubilər şəjərəsi/ sonra Misir səltənətini ələ keçirdilər. Məmlüklər dövləti həmin “bəhriyyədən” ibarətdir, bu jəhətdən, deməli türklərdir. Məlik Saleh Nəjməddin Əyyub Misir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əyanlarının təhriki ilə qardaşı Məlik Adili taxtdan salıb, səltənəti onun əlindən almağa jəhd etdi, lakin ordusu dağıldığından baş tutmadı. Bütün ordu və kömək dağıldı. Jəmi 80 nəfər qulamlar, türk mənşəli qullar və aristokrat müdrik adamlar qalmışdı ki, bunların da miqdarı 20 nəfərə çatırdı, bu 100 adam Nəjməddin Şəjərəddür ilə Kərək qalasında məhbus olarkən, həmçinin Kərəkdə idilər və öz ağalarının yanından ayrılmırdılar və salamat idilər. Bu zaman tale Nəjməddin Əyyubun üzünə güldü və həbsdən xilas oldu. Həmin tarixdə bu vəfadarlıq və duz-çörəyə sədaqət sübuta yetdi. Öz səltənətində onları himayəsinə götürdü, oonların sayı gün-gündən çoxaldı. Onları xüsusi olaraq özünün səmimi dostu hesab etdi. Dövlətin mərkəzi Jəbəl qalasından Rövzə qalasına köçdüyü zaman bu dəstəni də qalanın daxilində yerləşdirdi, onlara "bəhriyyə" adını verdi.

Məliki-müəzzəm Turan şah ibn Məlik Saleh Əyyub Mənsurədə təşkil etdiyi ordu ilə gəldi və dövləti əlinə aldıqdan sonra öz kobud və nalayiq hərəkətlərinə başladı. Hakiymiyyətdə olan adamları qorxu içində hədələyərək, bütün qələbəni öz adına çıxardı. O jümlədən Şəjərəddürü hədələyirdi. Şəjərəddür kubar və əmirlərlə ona məktub göndərərək yazırdı: "Siz gördünüz ki, mən öz həyat yoldaşım öləndən sonra işləri əlimə nejə aldım. Gənj dövlətin bütün problemlərini nejə həll edib, onu çətinlikdən qurtardım. Bütün bunların əvəzinə məni qorxutmaq, ləkələmək gördüyüm işlərə layiq deyil. Bu hal mənə qarşı hər gün baş verir". Bu xatunun öhdəsində olan, onunla həmrəy, həmməslək olan, vəfat etmiş öz xaqanına, məlikinə qul olan, sədaqətli olan məmlüklər jəmiyyəti bu vəziyyətə qəti etiraz edirlər. Onlar bir yerə yığışaraq danışıq aparmış və 648-ji il məhərrəm ayının 29-da / 1250-ji il,/4 may/ Məliki-müəzzəm Turan şah ibn Əyyubu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qətlə yetirdilər. Onun qətli ilə də Misirdə Əyyubilər sülaləsi hakimiyyətinə son qoyuldu. Bu sülalə 81 il 70 gün, 80 nəfər şahla Misirdə hakimiyyətdə olmuşdur. Məlik Saleh Nəjməddin Əyyubun oğlu Turan şah Məliki-müəzzəmin padşahlığı 4 ay bir gün sürmüşdür.

Turan şahı qətlə yetirən Bəhriyyə Məmlükləri Şəjərəddürü padşahlıq taxtında əyləşdirdilər və Misirin bütün məlikləri onun adına xütbə oxudular və sikkə kəsdilər. Sikkənin üzərində "Valideyi-Xəlil" sözləri də yazılmışdır. Hətta əmrlər, hökmlər və fərmanlar dövlət tərəfindən bu adla verilirdi: Valideyi-Xəlil.

Məmlük döyüşçüləri qanlı döyüşlər apararaq fransızları məğlub etdikləri vaxt jəsurluq göstərdilər. Döyüş nətijəsində Dəmiyat şəhərini fransızlardan aldılar. Onlara əsir düşmüş Fransız kralını azad etməklə də əvəzində Rivad şahzadəsindən alınan 40 min dinar məmlüklərə çatdı.

Müsəlmanların ordusu səfər ayının 9-da Mənsurədən hərəkət etdi və Qahirəyə üz tutdu. Səfər ayının 13-də Şəjərəddürrü görkəmli hərbçilər və dövlətin əyanları ziyarət etdilər. Onlar şaha sədaqət andı içdikdən sonra Şəjərəddürr onlara qiymətli hədiyyələr, fəxri geyim və adlar, xeyli pul və mal verdi. Deyilənlərə görə o, şahlığı, dövrün hakim kişi sultanlarından da bajarıqla idarə edirdi. Lakin elə oldu ki, onun sultanlıq xəbəri Şama /Dəməşq-T.H./ çatdı, oranın əhalisi bunu qəti olaraq rədd etdi. Bu səbəbdən Şam və Misir arasında narazılıq yarandı. Şamlılar Hələbin sahibi Məlik Nəsir Səlahəddin Yusif ibn Əzizi çağırtdırdılar. Həmçinin Abbasi xəlifəsi Müstəsim /1242-1258/ Bağdaddan həmin məlikə fərman göndərdi ki, bu nə düşünülməmiş qərardır? Və bir zəif ağıla malik qadını müsəlmanların böyük bir məmləkətinə padşah təyin etmisiniz? Bu xəbərlərə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

baxmayaraq məmlük əmirləri yenə də Şəjərəddürrə və çox mötəbər ali komandan İzzəddin Aybək Türkman Salehiyə etimad göstərməkdə davam edirdilər.

Müxalifət olan Şam əhalisinin etiraz xəbəri və xəlifənin İraqdan göndərdiyi məzəmməti Misirə çatan kimi Misir ordusu da Xəlilin anası İsmətəddin Şəjərəddür dövlətinin müdafiəsinə hazır oldular. Müşarileyha yuxarıda adı çəkilən Əmir İzzəddin Aybəkə ərə getməklə dövləti, öz hakimiyyətini onun ixtiyarına verdi. Misir diyarında onun müstəqil hakimiyyəti dövrü 80 gün oldu. Tarixi mənbələr göstərir ki, Şəjərəddür şahlığı müasiri olduğu kişi hökmdarlardan da yaxşı idarə etmişdir. O, öz məmlükləri ilə türkjə danışırdı. Bir dəfə Aybək bir neçə Bəhriyyə məmlükünü həbs edərkən, onlardan Aytəkin adlı məmlük Şəjərəddürrün yanından keçərkən, heç kəs başa düşməsin deyə, türkjə demişdi: “Mən sizin qulunuz başmaqçı Aytəkinəm. Allaha and olsun ki, biz heç bir günahımız olmadan həbs olunmuşuq. Biz sizin də, mərhum əriniz Məlik Salehin də mərhəmətini görmüşük və Aybəkin Mosul hakiminin qızına nişanlanmasına etirazımızı bildirmişik. Ona görə həbs olunmuşuq, indi bizi zindana aparırlar”. Şəjərəddürr qula yaylıq göstərməklə onun dediyini eşitdiyini bildirdi. Qul yeraltı zindana enərkən səsləndi: “O bizi həbs etdi, biz isə onu öldürdük”.

Etimadüssəltənə yazır: Şəjərəddürr İzzəddin Aybəkə 648-ji il rəbiülaxır ayında /1250,iyul/ əl-Məlik əl-Müəzz fəxri adı verərək müşayiətçilərlə böyük təntənə ilə padşahlıq taxtına əyləşdirdil. Bununla Misir türk məmlüklərinin ilk dövləti yarandı və Aybək 7 ilə yaxın səltənəti idarə etdi. Həmin müddətdə məmlüklərin çoxunu rəzil etdi, jəmiyyəti pərakəndə saldı. Hər ikisi igid, qüdrətli məmlüklərdən olan və hər ikisi sonralar hakimiyyətdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmuş Qlaven və Beybərs Aybəkin xofundan Şam şəhərinə qaçdılar. Bir çox hərbi hissə onun zülmü və qaniçənliyi nətijəsində məhv edildi. Axırda Şəjərəddürr onun qətlinə fərman verməyi qərara aldı və 655-ji lin rəbiülləvvəl ayının 24-də /1257-ji il 11 aprel/, çərşənbə günü hamamda öldürüldü. Bəziləri söyləirlər ki, Aybəkin qətlini təşkil edən Şəjərəddürr qısqanjlıq üzündən belə etmişdir. Güya ona xəbər verirlər ki, Aybək Mosulun hakimi Bədrəddün Lulunun qızı ilə nişanlanmışdır və onunla evlənmək əzmindədir. Şəjərəddürr bu xəbəri qeyrətinə sığışdırmadığı üçün həyəjanlanmış, bir gün Aybək çovqan oyunundan qayıdaraq hamamda yuyunarkən Şəjərəddür bu zaman Möhsün Təvaşinin saray xajəsi /qulamı/ olan Sənjər Jüjəri ilə bütün xidmətçiləri hamama göndərmiş və onlar Aybəki orada qətlə yetirmişlər. Həmin gejə ərini qətlə yetirən Şəjərəddürr Aybəkin üzük taxılmış barmağıqını görkəmli əmirlərdən biri olan İzzəddin Hələbiyə göndərərək, ona Misir sultanlığını idarə etməsini təklif etdi. Lakin İzzəddin bu addımı atmağa jəsarət etmədi və bu xəbər dilə düşərək yayıldıqdan sonra Müəzzəddin Aybəkin məmlükləri Aybəkin qatili Şəjərəddürrü öldürmək istədilər. Salihiyyə məmlükləri Şəjərəddürün keçmiş əri Məlik Saleh Nəjməddin Əyyubun tərəfdarları İzzəddin Hələbini müdafiəyə qalxdılar. Lakin Aybəkin məmlükları Aybəkin oğlu Nürəddin Əlini atasının yerinə səltənətə hökmdar təyin etdilər və ona Məlikül-Mənsur ləqəbi verdilər. Bu zaman onun 15 yaşı var idi. Şəjərəddürü Darüssəltənədən Bürji-Əhmərə göndərdilər. Müəzzəddin Aybəkin qətlində Şəjərəddürlə əlbir olmuş qulları dara çəkdilər və qətldə onların başçısı olmuş Sənjər Jövhəri isə qaçdı. Bir müddət keçdikdən sonra o da ələ keçdi və digərləri kimi dar ağajından asıldı. Şəjərəddürün vəziri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmuş Bəhaəddin Əli bin Jünanın evini isə dövlət gözətçilərinə tapşırdılar və öz xətti ilə yazdıraraq, ondan 60 min dinar aldılar. Bir müddətdən sonra Aybək Müəzzəddinin məmlükləri birləşərək, Məlik Mənsur Əli ibn Aybəkin başçı və atabəy təyin etdiyi Elməddin Sənjər Çələbini tutdular və onun yerinə Oktay Müstəərəb Salehini Atabəy təyin etdilər. Həmin 655-ji ilin rəbiülaxırın 16-da /1257, 3 may/ Şəjərəddürr qətlə yetirildi. Onun jəsədi Bürji-Əhmərdən bayıra atıldı. Sonra onu öz sağlığında tikdirdiyi məzarında torpağa tapşırdılar[20].

## ŞƏHRƏBANU XANIM

[S. 202] Kirman hakimi mərhum Əmiri-müəzzəm Məhəmməd İbrahim xan Zəhirüddövlə Qajarqovanlının qızıdır. Şəkvətüssəltənənin anasıdır. Zəhirüddövlənin bu qızı bəstamlı qadının bətnində dünyaya gəlmişdir. O, Bəstamın zadəgan ailəsindəndir. Ərəb tayfalarındandır.

Şəhrəbanu xanım çox böyük hörmət sahibi, şöhrətli alim bir qadın olmuşdur və möminlik, xeyriyyəçilik işlərində daha çox ad qazanmışdır.

## ŞƏKVƏTÜSSƏLTƏNƏ

[S. 201] Əlahəzrət Nəsrəddin şah Qajarın xanımı, Fətəli şahın oğlu mərhum şahzadə Fətulla mirzə Şüaüssəltənənin qızıdır. Vəliəhd Müzəffərəddin mirzənin anasıdır. Kirman hakimi mərhum Məhəmməd İbrahim xan onun ana babasıdır və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qajarlar nəslindəndir. Xeyriyyəçi qadın idi. Onun söylədiyi hədislərin hamısı din və dindarlığa aiddir.

## ŞƏKƏRPARƏ

[S. 115] Sultan İbrahim Osmani ilə dost və qarşılıqlı münasibətdə olan qadınlardan biridir ki, Sultan üçün dastan söyləyirdi. Sonra öz həddini keçib dövlət işlərinə müdaxilə etdi, vasitəçi olub adamlardan rüşvətlər aldı. Get-gedə mətləb aşkar oldu. Əvvəl onun anası Mehdülya Kusəm xəbərdar və tənbeh edildi. Sonra məsələ Sultana gedib çatdı. Onun şəhərdən çıxarılması haqda hökm verildi.

Jəmadüləvvəlin 3-ü 1058-ji ildə / 27 may,1648/ Şəkərparəni qəflətən tutdular və bir qayığa qoyub, Saqqız adasına apardılar. Oradan İbrimə sürgün elədilər. Deyirlər Əhməd ağa adlı bir məmur onu ölkədən çıxararaq, həmin yerə çatdırmışdır.

Şəkərparə qəflətən tutulduğu üçün yanında pulu olmamış və Əhməd ağaya bu barədə dedikdə o, 600 ağça ona pul vermişdir. Şəkərparə həmin pullara baxıb, sevindiyindən Əhməd ağanın ətəyindən öpmüş və hər ikisi ağlamışdı.

Beləliklə, Şəkərparənin uzaqlaşdırılaraq sürgün olunması barədə əmr verildikdən sonra əmlakı bütünlüklə müsadirə edilərək zəbt olunmuşdur. Onun Xani-Validədə /İstanbulda karvansara adıdır/ bir otaqda 16 sandıq var-dövləti aşkar edildi ki, hamısı jəvahir və qızıl-gümüşlə dolu idi. Şəkərparənin evindən də 250 kisə nəqd pul və müxtəlif mallar aşkar edib götürdülər. Bütün bunların hamısını Sultan İbrahimin üzuruna apardıqda Sultan bunları görüb, çox təəjjübləndi, və dedi: “Ay kafir, mənim yanımda and içirsən ki, şam yeməyimə pulum



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yoxdur, gör nə edirsən? Bütün bunların hamısı mənim malımdır”.

## ŞƏRAHƏ

[S. 109] Şərahə yaxud Səraqə Həmədan qəbiləsindən olan bir qadındır. O, Həzrəti-Əmirəlmöminin Əli Əleyhiəssəlamın hüzurunda öz zinakarlığını etiraf etmiş və daşqalaq olunmuşdur. Şərahə mühəddis idi. Ümsəhlə ləqəbli idi.

## ŞƏRƏF XANIM

[S. 109-110] Fətinin[21] təzkirəsində olan məlumata görə mətbu divanı olan Şərəf xanım kitabxana sahibi və üləma şairlərdən Şeyxulislam Aşir əfəndi nəslindən olan Nəbil bəyin qızıdır. Müşarileyha Ədibə şairlərdən olub, münajatı Fətin təzkirəsinə daxil edilmişdir. Münajat aşağıdakı kimidir:

Ya ilahi, deyiləm müstəhəqq, ehsan eylə,
Kərəmü lütfünü həqqimdə firavan eylə.
